Xalqın qəzeti!

# Xalq qəzeti

№ 201 (30317) 17 sentyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz bəzi hallarda görürük, sanki, heç müharibə olmayıb, sanki, işğal olmayıb, sanki, Ağdamı "Qafqazın Xirosimasına" döndərən olmayıb. Bunu unutmaq və bizə unutdurmaq istəyirlər. Bu, heç vaxt olmayacaq.**

## Azərbaycan dünyanın dinamik inkişaf edən ölkəsidir

*"Fitch Ratings" beynəlxalq reytinq agentliyi bunu bir daha təsdiqləyib*

**"Fitch Ratings" beynəlxalq reytinq agentliyinin hesabatında bu il ölkəmizdə iqtisadi artımın 1,8 faiz təşkil edəcəyi, qarşıdakı 2 il ərzində isə qeyri-neft sektorunda əldə olunan müsbət göstəricilər hesabına orta hesabla 2,3 faiz olacağı proqnozlaşdırılıb.**



Agentlik, həmçinin respublikamızın xarici valyutada uzunmüddətli emitent defolt reytinqini də müsbət proqnozla "BB+" səviyyəsində təsdiqləyib.

Hesabatda bildirilib ki, reytinq və müsbət proqnoz çox güclü xarici balans, ən aşağı dövlət borcu və iri maliyyə ehtiyatları ilə dəstəklənir. Bu müsbət amillərlə bərabər zəif idarəetmə göstəriciləri, yüksək maliyyə dollarlaşması, karbohidrogenlərdən ağır asılılıq və geosiyasi risklər kimi məsələlər də proqnozlaşdırmada nəzərə alınır.

"Fitch Ratings"in hesabatına əsasən, neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq (neft-qaz gəlirləri ümumi ixracın 90 faizinə bərabərdir) 2024–2025-ci illərdə ikirəqəmli profisit gözlənilir. Buna görə də cari il xarici valyuta vəsaitlərinin 68 milyard ABŞ dollarına çatacağı, bunun da 82 faizinin ARDNF-də olacağı proqnozlaşdırılır. Agentlik tərəfindən Azərbaycanın xalis suveren vəsaitləri 14 faiz artmaq şərtilə 2023-cü ildə ÜDM-in 63 faizinə və 2025-ci ilə qədər isə 72 faizinə çatacağı gözlənilir. Bu isə ölkəmizin təmsil olunduğu qrupda ən yüksək göstərici sayılır.

*(ardı 7-ci səhifədə)*

## ABŞ-nin işğalçı Ermənistana dəstəyi Azərbaycana xəyanətdir

**Bu sətirləri qələmə alarkən rusların amerikaşünas mütəxəssislərindən birinin 15–16 il əvvəl yazdığı məqalədən yadımda qalan bir məqamı xatırladım. Rus müəllif ABŞ prezidentlərindən birinin öz ölkəsinin siyasəti barədə dediyinə diqqət yetirmişdi.**



Prezident öz xanımıyla iqamətgahın eyvanında oturub çay içirmiş. Aşağıda – həyətdə isə onların 2 azyaşlı oğlu oynayırmış. Böyük qardaş balaca qardaşı döyəndə xanım ərinə deyib ki, ona xəbərdarlıq elə, kiçik qardaşını döyməsin. Prezident isə xanımına ABŞ-nin dövlət siyasətini xatırladıb: "Əgər kiçiyin gücü çatırsa, cavab versin, gücü çatmırsa, onun dediklərinə əməl etsin". Rus müəllif bu əhvalatı yazandan sonra əlavə eləmişdi ki, həmin münasibət ABŞ dövləti yaradıldıqdan bəri onun xarici siyasətinin təməl prinsiplərindəndir və amerikanlar həmişə belə olublar.

Yazını rus müəllifin məqaləsi ilə başladıq, Rusiya siyasətçisinin fikirləri ilə də davam etdirək. Prezident Vladimir Putin bir neçə gün əvvəl Şərq İqtisadi Forumunun plenar iclasındakı çıxışında deyib ki, Vaşinqtonun dostları yoxdur, yalnız öz maraqları var: "Onlar öz müttəfiqlərinə və tərəfdaşlarına təzyiq göstərirlər". Əslində, bu tezis bizim üçün o qədər də yeni deyil. Çünki ötən əsrin son onilliyində Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edəndə, bir miyondan çox soydaşımız qaçqın-köçkün taleyi yaşamalı olanda özünü demokratiyanın qoruyucusu, himayədarı adlandıran Ağ Ev Ermənistanı cəzalandırmaq əvəzinə, Azərbaycana yardım göstərilməsini əngəlləyən "907-ci" düzəliş adlı bədnam sənəd imzalamışdı.

*(ardı 5-ci səhifədə)*

## Öz dərmanlarımız çoxaldıqca qiymətlər də enəcək



**Ölkəmizdə dərmanların baha qiymətə satılması, keyfiyyətinin aşağı olması, eləcə də bəzi əczaçılıq mallarının qıtlığı əhalini həmişə narahat edib. Son illər bu sahədə müəyyən işlər görülsə də, Tarif (qiymət) Şurası dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə qərarlar qəbul etsə də, problemin köklü həlli mümkün olmayıb.**

İnzibati tədbirlərə baxmayaraq, dərmanların qiyməti anbaan bahalaşıb. Bu azmış kimi, bəzi dərman vasitələri apteklərdən yoxa çıxıb. Əlacı həmin dərmanları xarici ölkələrdə axtarmaqda görən vətəndaşlar əlavə xərc çəkməklə yanaşı, vaxt itkisi ilə də üzləşməyə məcbur olublar.

*(ardı 7-ci səhifədə)*

## Lobbiçilik – hamının istifadə etməyə çalışdığı strateji güc

**Sentyabrın 14-də erməni "sevdalısı" Robert Menendezin təşəbbüsü ilə ABŞ Senatının Xarici əlaqələr komitəsində "Qarabağdakı böhranın qiymətləndirilməsi" mövzusunda dinləmələr keçirildi. Diplomatik ciddiliyə sığmayan rəftarı ilə "Süngər Bob" kimi tanınan senator Bob Robert Menendez ABŞ-də Azərbaycanın və Türkiyənin ən qatı düşmənlərindən biridir.**

Səhifə ⇨ 4

## Paşinyanın "seçki manifesti": anti-Rusiya dirənişi, Qarabağ və Ermənistanın statusu

Səhifə ⇨ 3



## İMEC, yoxsa "Orta dəhliz"?

**Məlum olduğu kimi, "Böyük iyirmiliy"in bu günlərdə Dehlidə keçirilən sammitində yeni meqanəqliyyat dəhlizi təqdim edilib. Hindistandan başlayaraq, Yaxın Şərq üzərindən Avropaya qədər uzanan yeni dəhliz İMEC (abbreviatura Hindistan, Yaxın Şərq və Avropa coğrafi adlarının ingilis dilindəki baş hərflərindən götürülüb-*müəllif*) adlanır.**




İMEC mal və əmtəələrin Hindistanın Mumbai liman şəhərindən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay limanına, oradan isə Səudiyyə Ərəbistanının səhralardan ibarət ərazisində 2 min kilometr uzunluğunda tikiləcək dəmir yolu vasitəsilə İordaniya Krallığına, qonşusu İsrailin Hayfa liman şəhərinə, daha sonra isə gəmilərlə Yunanıstana və digər Avropa ölkələrinə hər iki istiqamətdə çatdırılması üçün nəzərdə tutulub.

*(ardı 11-ci səhifədə)*

## Çağdaş səhnə "Qarabağnamə"si




Səhifə ⇨ 10

# Türkiyənin Qarabağla bağlı dördtərəfli görüş keçirmək təklifi



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, o, Qarabağ məsələsi ilə bağlı Azərbaycan, Rusiya və Ermənistana liderlər səviyyəsində dördtərəfli görüş keçirməyi təklif edib. Bu barədə Türkiyə KİV-ləri məlumat yayıb.**

Rəcəb Tayyib Ərdoğan Nyu-Yorka yola düşməzdən əvvəl İstanbulda keçirdiyi mətbuat konfransında deyib: "Bəli, əvvəllər nəzərdə tutulduğu kimi, üçtərəfli formatda görüş keçirilməsi bizim prioritetimizdir. Amma biz, həmçinin dördtərəfli formatda görüşməyi təklif etdik. Bu təklifi çatdırdıq. Yəni mən özüm, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan. Mən dedim ki, gəlin görüşək, atılacaq addımları birlikdə müzakirə edək. Amma indiyədək bu təklifə müsbət və ya mənfi cavab almamışıq".

***XQ***

# Azərbaycan Ermənistana qarşı arbitraj prosesinə başlayıb

**Qırğız Respublikasının Ali Məhkəməsi və Hakimlər Assosiasiyası tərəfindən "Ekologiya sahəsində ədalət mühakiməsinə çatımlıq" mövzusunda hakimlərin beynəlxalq konfransı dünən öz işini yekunlaşdırıb.**

Çolpon-Atada təşkil olunan konfransda ölkəmizi Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov təmsil edib. O, çıxışında Azərbaycanda ətraf mühitin müdafiəsi sahəsində görülən işlər və ölkəmizdə bu istiqamətdə məhkəmə təcrübəsi barədə konfrans iştirakçılarına ətraflı məlumat verib.

Ç.Əsgərov Ermənistanın 30 illik işğalı nəticəsində Azərbaycan təbiətinə vurulmuş ekoloji ziyanın araşdırılması prosesinin davam etdiyini və Bern Konvensiyasının qaydalarına uyğun olaraq ətraf mühitin geniş miqyasda məhv edilməsinə görə ölkəmiz tərəfindən Ermənistana qarşı arbitraj prosesinə başlandığını diqqətə çatdırıb.

Konfransda Azərbaycan Prezidentinin "yaşıl enerji" siyasətinə uyğun atılan addımlar və bu təşəbbüsün dünya birliyi üçün önəminə də toxunulub.

***XQ***

# MDB dövlətlərinin daxili işlər nazirlikləri arasında əməkdaşlıq genişlənir



**Qazaxıstanın Türküstan şəhərində MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib.**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib.

İclasda birlik ölkələrinin daxili işlər nazirlikləri arasında əməkdaşlığın prioritet məsələlərinə baxılıb, birgə əməliyyat-profilaktik tədbirlərin və xüsusi əməliyyatların nəticələri müzakirə edilib.

Şura iclası transmilli cinayətkarlığa qarşı mübarizədə MDB iştirakçısı olan dövlətlərin daxili işlər nazirlikləri arasında əməkdaşlığa dair sənədlərin imzalanması ilə başa çatıb.

***XQ***

# Xarici ölkələrin baş prokurorları Şuşa və Füzulidə

**MDB ölkələrinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclasında və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün Azərbaycana gəlmiş nümayəndə heyətləri və bu qurumların təmsilçiləri Şuşa və Füzuliyə səfər ediblər.**



Baş Prokurorluğun mətbuat xidmətindən redaksiyamıza bildirilib ki, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın Baş prokurorları Niqmatılla Yuldaşev, Berik Asılov və Zuluşev Toktoralyeviç, Türkmənistan Baş prokurorunun müavini Allanazar Nyazlıevin rəhbərlik etdiyiheyətlər, eləcə də İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibin müavini Jandos Asanov və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinin nümayəndəsi İqor Malaşeviç Şuşada Cıdır düzü, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Qala divarları, Gəncə qapısı və bir sıra tarixi-mədəni abidələrini ziyarət ediblər. Onlar erməni vandalizminin ağır nəticələrini təəssüf hissi ilə müşahidə edib, mədəniyyət paytaxtımızda görülmüş bərpa-quruculuq işləri ilə yaxından tanış olublar.

Mərkəzi meydanda qonaqlara Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinin tarixçəsi barədə məlumat verilib. Heydər Əliyev Fondunun bərpa etdiyi Yaradıcılıq Mərkəzində isə səfər iştirakçıları "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar.

Sonra Füzuli rayonuna gedən qonaqlar buarada aparılan yenidənqurma işləri, həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, o cümlədən yeni salınmış yaşayış massivləri və digər sosial təyinatlı obyektlərlə tanış olublar. Onlar Özbəkistan dövlətinin hədiyyəsi olan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbə də gediblər.

***XQ***

## Müdafiə Nazirliyinin məlumatı

### HHQ-nin qüvvələrinin aviasiya vasitələri təlim-məşqdə

**Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotlarının peşəkarlığının daha da artırılması, uçuş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq uçuşları davam edir.**

Müdafiə Nazirliyindən XQ-yə bildirilib ki, plana uyğun olaraq heyətə təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra, müəyyən edilmiş marşrutlar üzrə gündüz vaxtı və gecə məhdudgörmə şəraitində havaya qalxma, yerə enmə, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra olunub. Təlim-məşq uçuşları zamanı qarşıya qoyulan bütün tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.



***

**Sentyabrın 16-sı saat 13:00 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında səngərin mühəndis cəhətdən hazırlanması məqsədilə qazıntılar aparmağa cəhd göstəriblər.**

XQ xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

***

**Həmin gün saat 19:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonunun Cil yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Gədəbəy rayonunun Əyrivəng yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# ABŞ-nin Ermənistanın iddialarını təkrarlaması qəbuledilməzdir



**Dünən Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ilə görüşüb. XİN-dən XQ-yə verilən məlumata görə, görüş zamanı bölgədə cari vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesi, mövcud təhdid və çağırışlar müzakirə olunub.**

Nazir Ceyhun Bayramov sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ dövlət katibi Entoni Blinken arasında təmaslar zamanı Ağdam–Xankəndi və Laçın yolunun eyni zamanda açılması istiqamətində əldə olunmuş razılığın həyata keçirilməsinə əngəl törədən tərəfin bundan öncəki razılıqlarda olduğu kimi Ermənistan və onun yaratdığı qondarma rejim olduğunu diqqətə çatdırıb. Bu faktların da, öz növbəsində, bölgədə, guya, "humanitar böhran", "blokada" olması ilə bağlı səsləndirilən iddiaların əksinə, vəziyyətin heç də humanitar deyil, əslində siyasi olduğuna dəlalət etdiyini bir daha göstərdiyi bildirilib.

Ermənistan tərəfinin davamlı hərbi-siyasi təxribatlarına, bütün dünyada Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparmasına, ərazilərimizdə separatçılığı dəstəkləməsinə baxmayaraq, ölkəmizin konstruktiv mövqe sərgiləməsinin fonunda bölgədəki vəziyyətlə yaxından tanış olan bir sıra beynəlxalq tərəfdaşların, o cümlədən, ABŞ tərəfinin Ermənistanın rəvayətlərinə uyaraq erməni tərəfinin iddialarını təkrarlamasının qəbuledilməz olduğu bildirilib.

Bu xüsusda, Ermənistanın bölgədə sülh və təhülükəsizliyə əsas təhdid olan, Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələrinin mövcudluğundan diqqəti yayındırmaq və beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə yaydığı əsassız iddiaların ötən günlərdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi v.i.e. Yuri Kimin çıxışında öz əksini tapmasının təəssüf doğurduğu bildirilib. ABŞ tərəfi ilə 1 sentyabr razılığına uyğun olaraq yolların paralel açılmasına Ermənistan və qondarma rejim tərəfindən maneçilik törədilməsinin Senatda ABŞ rəsmisi tərəfindən bəyan edilməməsinin vəziyyətə dair yanlış təəssürat yaratdığı vurğulanıb.

Ermənistanın son dövrlərdə atdığı addımların, o cümlədən, sentyabrın 2-də Ermənistan baş naziri Nikol Paşinyanın ərazilərimizdə separatçılığı təşviq edən təbrik mesajının normallaşma və sülh prosesinə ciddi zərbə vurduğu xatırlanıb.

Azərbaycanın yollardan paralel istifadə edilməsi üzrə razılığa sadiqliyi bir daha diqqətə çatdırılıb.

# Ceyhun Bayramov yeni səfirlərlə görüşüb



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasındakı yeni təyin edilmiş səfiri Ömər Al Naharla da görüşüb. Səfir etimadnaməsinin surətini nazir nazirə təqdim edib.**

Ceyhun Bayramov iqtisadiyyat, turizm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin və Hökumətlərarası Komissiyanın fəaliyyətinin, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini xüsusilə vurğulayıb.

Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu qeyd edən səfir Ömər Al Nahar diplomatik fəaliyyəti dövründə İordaniya–Azərbaycan arasında əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

***

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə yeni təyin olunmuş səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüşüb. Səfir etimadnaməsinin surətini nazirə təqdim edib.**

Nazir Azərbaycan və Səudiyyə Ərəbistanı arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, enerji təhlükəsizliyi, humanitar və sair sahələr üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu məmnuniyyətlə qeyd edərək, münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və təmasların mühüm rol oynadığını bildirib.

Səfir iki ölkə arasında əlaqələrin inkişafından və son zamanlar həyata keçirilən ikitərəfli görüşlərdən bəhs edib. Ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da genişlənməsi istiqamətində səyləri daha da artıracağını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

***XQ***

# Ermənistanın kvadrokopteri zərərsizləşdirilib

**Ermənistan silahlı qüvvələrinin Paşalı rayonunun Sultanbəy yaşayış məntəqəsindən qaldırdığı kvadrokopter Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Türkeş yaşayış məntəqəsində yerləşən bölmələrinin müdafiə mövqeləri üzərində kəşfiyyat xarakterli uçuş həyata keçirməyə cəhd göstərib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən redaksiyamıza bildirilib ki, hava hücumundan müdafiə bölmələrimizin aşkar etdiyi kvadrokopter xüsusi texniki vasitələrlə endirilərək zərərsizləşdirilib.

***XQ***

# Sahibə Qafarova: Müasir dünyada separatizmə dözmək olmaz

**Beynəlxalq ictimaiyyət təcavüzkar separatizmə qarşı öz səsini ucaltmalı və belə qanunsuz fəaliyyətləri qəti şəkildə pisləməlidir.**



Bunu Kubada keçirilən G77+Çin Sammitinin çıxışı zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Ermənistanın regionda vəziyyəti gərginləşdirmək istiqamətində atdığı addımlar barədə danışarkən deyib.

Bu gün Azərbaycanın beynəlxalq hüququn norma və prinsipləri əsasında Ermənistanla normallaşma prosesi və sülh sazişinin imzalanması təşəbbüsü ilə çıxış etdiyini bildirən Milli Məclisin Sədri bunun regionda uzunmüddətli sülhə və sabitliyə nail olmağın yeganə yolu olduğunu qeyd edib.

S.Qafarova qeyd edib ki, bu gün sülh və təhlükəsizlik olmadan davamlı inkişafa nail olmaq mümkün deyil. Azərbaycan 2020-ci ildə öz ərazilərini 30 illik erməni işğalından azad etdikdən sonra bu ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb. Biz kifayət qədər böyük problemlə üz-üzəyik, çünki 8 şəhər və yüzlərlə kənd, habelə bütün infrastrukturu sıfırdan qurmaq lazımdır.

*

Milli məclisin Sədri çıxışında daha sonra bildirib: Azərbaycan "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi"nin həyata keçirilməsinə sadiqdir. BMT-yə üç Könüllü Milli İcmal Hesabatı təqdim etmiş ölkələr siyahısında məhz Azərbaycan region ölkələri arasında birinci, dünyada isə 12 ölkədən biridir.

O qeyd edib ki, dialoqun, həmrəyliyin, qarşılıqlı dəstəyin və çoxtərəfliliyin gücləndirilməsi hər zaman Azərbaycanın qlobal baxışının hərəkətverici qüvvəsi olub. BMT Baş Assambleyasının COVID-19 üzrə Xüsusi Sessiyasının keçirilməsi, peyvəndlərə bərabər və universal çıxış haqqında BMT qətnamələrinin qəbul olunması Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin mühüm nəticələri arasındadır. Ölkəmiz, həmçinin koronavirusla əlaqədar 80-dən çox ölkəyə maliyyə və humanitar yardım göstərib,

Prezident İlham Əliyevin bu ilin martında Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun ölkəmizdə keçirilmiş sammit səviyyəli görüşü çərçivəsində Afrika və İnkişaf etməkdə olan Kiçik Ada Dövlətlərinin pandemiyadan sonrakı bərpasına dəstək məqsədilə iki Qlobal Çağırış elan etdiyini xatırladan Milli Məclisin Sədri bu çağırışların birbaşa maliyyə dəstəyini, təhsil imkanlarının genişləndirilməsini, potensialın gücləndirilməsini və digər vasitələri nəzərdə tutduğunu diqqətə çatdırıb. Azərbaycan ilk donor kimi hər iki Qlobal Çağırış üçün 1 milyon ABŞ dolları ayırıb.

Azərbaycanın 2018-2023-cü illər ərzində əsasən G77 Qrupuna daxil olan 83 ölkədən olan tələbələrə tam ali təhsil təqaüdü verdiyini deyən S.Qafarova bildirib ki, ölkəmiz Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış "Heydər Əliyev Beynəlxalq Təhsil Qrant Proqramı" vasitəsilə bu təqaüdləri İƏT, Qoşulmama Hərəkatı və İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri coğrafiyasından olan ölkələrə də şamil etməyi hədəfləyir.

***Əliqismət BƏDƏLOV***
***XQ***

---

**Ermənistan baş naziri Nikol Paşinyan rəhbərlik etdiyi "Vətəndaş sazişi" Partiyasının İrəvan meriyasına seçkilərlə bağlı keçirdiyi təbliğat-təşviqat mitinqində 10 noyabr 2020-ci il tarixdən, yəni 44 günlük müharibə başa çatdıqdan sonra Cənubi Qafqaz regionunda vəziyyətin nə üçün normallaşmadığına aydınlıq gətirib. Əlbəttə, Nikolun məsələyə diqqət yetirməsi müsbət haldır. Deməli, Ermənistan hakimiyyəti, heç olmasa, durumun pisliyini anlayır. Hərçənd, inanmaq çətindir ki, Paşinyan iqtidarı özünü təqsirkar görsün. Elə baş nazirin çıxışı da təqsiri özündən uzaqlaşdırmaqdan, başqalarının üstünə atmaqdan başqa bir şey deyildi.**

***

Beləliklə, Nikol qeyri-müəyyən konspriativ məntiqinə güc verərək bildirib ki, 44 günlük müharibədən sonra bəziləri məqsədlərinə çata bilmədilər. Onun bu fikrini, ilk baxışdan, daxili auditoriyaya hesablanmış düşüncə məhsulu kimi qəbul etmək mümkündür. Axı, İrəvan meriyasına seçkilər hazırkı iqtidarın perspektivinə aydınlıq gətirmək baxımından önəmlidir. Yəni, prosesdə uğursuzluq hakimiyyətin itirilməsinin yarısı olacaq. Nəzərə alaq ki, paytaxt İrəvan Ermənistanın böyük və əhəmiyyətli hissəlükəsizlik məsələlərinin, əslində, Azərbaycana qarşı ərazi iddiası olduğunu təsdiqləyir. Sadəcə, metod fərqliliyi var. Onu da nəzərə alaq ki, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verən Paşinyan idi, başqaları yox.

Ancaq məlumdur ki, Qarabağa statusla Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələlərinin, belə demək mümkünsə, müəlliflik hüquqları fərqlidir. Birinci Rusiya tərəfindən irəli sürülmüşdü, ikinci isə Qərb. Paşinyan hazırda ikinci yolla getməklə, eyni zamanda, birinciyə qarşı demarş im-

# Paşinyanın "seçki manifesti": anti-Rusiya dirənişi, Qarabağ və Ermənistanın statusu



si deməkdir və şəhərin meriyasına sahiblik, faktiki olaraq, hakimiyyətə alternativlikdir. Bu səbəbdən Paşinyanın bütün populist potensialını işə salması anlaşılandır.

***

Ancaq Nikolun söylədiklərində bir məqam var. O, bəzilərinin məqsədlərinə çata bilmədiyini vurğulayarkən, ictimai rəyi Qarabağ kartına kökləmək yolunu tutur. Bu kökləməyin başqa bir səbəbini yazımızın sonunda bildirəcəyik. Hələlik isə erməni baş nazirin dediklərinə diqqət yetirək. O bildirir ki, kimlərsə ölkəni diz çökdürmək, müstəqilliyini, suverenliyini, dövlətçiliyini şübhə altına almaq istəyibmiş və beləleri sözügedən Qarabağ kartından yararlanırlar: "Bir çoxları və ya bəziləri bizim diqqətimizi Dağlıq Qarabağ məsələsinə və Dağlıq Qarabağın statusuna yönəltməyimizdən istifadə edərək, Ermənistanın statusunu şübhə altına almağa çalışıblar".

Əlbəttə, Paşinyanın Qarabağla bağlı "status" sözünü dilinə gətirməsi son zamanlar üçün yenilik sayılmalıdır. Axı, Ermənistanın diqqəti status məsələsinə yox, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə, mövcud istiqamətdə beynəlxalq mexanizmlərin yaradılmasına yönəlmişdi. Hər halda, hazırda Nikol iqtidarının Azərbaycan–Ermənistan sülh müqaviləsindən gözləntisi budur. İrəvan istəyir ki, sözügedən məqam müqavilədə ayrıca müddəa kimi yer alsın. Bu isə o deməkdir ki, Ermənistan gələcəkdə Qarabağla əlaqədar iddia irəli sürmək üçün hüquqi əsas yaradılmasına çalışır.

Bəs, sırf Qarabağa status məsələsinin məqsədi nə idi? Məqsədlər eyni idi. İndi Paşinyan da dilindən "status" sözünü çıxarmaqla, əslində, həm status, həm də Qarabağ ermənilərinə hüquq və təhmuniteti göstərməkdədir. Onun seçicilər önündəki çıxışındakı subliminal mesaj da elə budur.

Bəli, Nikol demək istəyir ki, ruspərəstlər Ermənistanın müstəqilliyini və suverenliyini şübhə altına almaq istəyirlər. Paşinyanın təbirincə desək, "tribunadan müstəqillikdən və suverenlikdən danışanlar" Qarabağ müstəvisindəki mövqeləri ilə bu dəyərləri Rusiyanın əvvəli protektoratlığına təslimiyyətdə görürlər. Nikolun fikrincə, onlar 2020-ci ilin 10 noyabrından fəaliyyətə keçiblər və həmin fəaliyyətin nəticəsidir ki, Cənubi Qafqazda vəziyyət sabitləşmir.

***

Göründüyü kimi, Ermənistanın baş naziri özünün anti-Rusiya ritorikasını seçki prosesinə də gətirdi. Əslində, bu gediş gözlənilən idi. Çünki hazırda ölkədə ona qarşı çıxan güclü kəsimin rusmeyilli olduğu məlumdur. Nikol bu kəsimi neytrallaşdırmasa, habelə, tam şəkildə gözdən salmasa, seçkidə işi çox çətin olacaq. Ona görə belə bəyanatlar verir.

Əlbəttə, bu bəyanat, eyni zamanda, Ermənistan iqtidarının Qarabağ avantürasından qopmadığının da növbəti təsdiqidir. Görünür, baş nazir əvvəllərdə olduğu kimi, yenə o düşüncədədir ki, erməni cəmiyyətinin xəstəliyi keçməyib. Elə bu səbəbdən oyununu o xəstəliyin təzahür formalarına fokuslanaraq qurur.

***

Sonda bir məqamın üzərində dayanaq. Məlumdur ki, Qarabağ avantürası müasir Ermənistan dövlətçiliyinin visit kartıdır. Bir qədər də ətraflı desək, Ermənistan Respublikası lap əvvəldən Qarabağ xülyası zəminində ortaya çıxmış quruluşdur. Mövcud anlamda düşünmək olar ki, Qarabağ yoxdursa, Ermənistan da yoxdur. Ona görə də Nikol çıxışında Ermənistanın statusu məsələni elə-belədən qabartmır.

Yeri gəlmişkən, o, hələ hakimiyyətə gəlməzdən əvvəl Qarabağ avantürasından uzaqlaşan dövlət preambulasını rəhbər tutmuşdu. Ancaq sonrakı proseslər göstərdi ki, Paşinyan da avantüranın əsirinə çevrildi. Deməli, Qarabağla var olan Ermənistan bölgənin əldən çıxması ilə varlığını itirə də bilər. Nikol və komandası isə vəziyyətin bu şəkil almasına qarşı heç nə edə bilməyəcək kimi görünür.

***Ə.RÜSTƏMOV***
***XQ***

---

KÖŞƏ

# Fəlakətin ayaq səsləri

## yaxud ermənisayağı "karlıqda" avantürizm etüdləri

**Qərbin Rusiyanı dünyadan "izqoylaşdırmaq" siyasətinin növbəti ünvanı Cənubi Qafqazdır. Artıq qətiyyətlə bunu bildirmək mümkündür. Mövcud siyasətdə Ermənistan amili əsas götürülməkdədir. Ermənistanın isə öz marağı var – Qarabağ. Erməni avantürası əldə etməyə – işğala, qəsbə öyrəncəlidir. İtirmək onun xəstə təfəkkürünə yaddır. Ona görə dirəniş göstərir...**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Əlbəttə, Qərbin, o cümlədən, ABŞ-ın Cənubi Qafqaza baxışından da söz açmaq mümkündür. Rəsmi açıqlamalar onu deməyə əsas verir ki, Qərb dünyası yaşadığımız coğrafiyanı sülh şəraitində görmək istəyir. Ancaq sözdə sülh çağırışlarını çox eşitmişik. Təzadlı səslənsə də, sən demə, müharibələr də sülh üçün imiş. Daha bir təzad budur ki, sülh üçün axıdılan göz yaşları timsahın göz yaşından bir o qədər fərqlənmir.

Bəli, mövcud mürəkkəb geosiyasi labirintdə Ermənistan amili qədər, Azərbaycan amili də ön plandadır. Dünya erməniliyinin hazırda həll etməyə çalışdığı məsələ Azərbaycanı yox eləməkdir. Ona görə müxtəlif problemlər gündəmə gətirilməkdədir. Sırf Qarabağ ritorikası fonunda Azərbaycanın Laçın yolunu bağlaması, Qarabağ ermənilərinə qarşı etnik təmizləmə, soyqırımı və sair cəfəngiyyatlar uydurulmaqdadır. Daha bir məqam isə ölkəmizə "qeyri-demokratik ölkə" damğasının vurulmasıdır. Yəni, dünya erməniliyi və Ermənistan məhz vurğuladığımız bu yaramaz tezislərlə üstümüzə gəlir. Beləliklə, Azərbaycan əleyhinə qlobal antipatiya dalğası formalaşdırmaq yolunu tutur. Əlbəttə, daha bir məqam da var. Sən demə, Azərbaycan ruspərəst imiş. Erməni beyin mərkəzləri bu cəfəngiyyatı da tirajlamaqdadırlar. Həmin mərkəzlər Azərbaycan amilinin gücünü 44 günlük müharibə dönəmində yaxşı görmüşdülər. Savaş meydanı bir yana, onlar ölkəmizi işğalçı, təcavüzkar kimi təqdim etmək cəhdlərinin də uğursuzluqla nəticələndiyinə şahidlik etdilər. Bu səbəbdəndir ki, daha rəngarəng "gedişlərə" baş vururlar.

***

Lakin indi dünyada vəziyyət dəyişib, fərqli situasiya yaranıb. Rusiya, əvvəldə də bildirdiyimiz kimi, "izqoylaşdırılıb". İrəvan mövcud siyasətdə yer almaq istəyini ortaya qoyur, öz "xidmətini" təklif edir. Var gücü ilə çalışır ki, Moskvanın Cənubi Qafqazla bağlılıq tellərinə zərbə vursun.

Məlum olduğu kimi, İrəvanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsindəki anti-Rusiya demarşları ötən ildən başlanıb. Qurumun 2022-ci ilin noyabrında Ermənistanın paytaxtında keçirilmiş iclası zamanı yaşananlar bu demarşların dramatik isterikasının göstəriciləri idi. Paşinyan Rusiya Prezidenti Vladimir Putinin qatıldığı sammitdə nəinki ona, eləcə də digər liderlərə hörmətsizlik yolu tutdu, bütün diplomatik etiketləri aşaraq, faktiki olaraq, toplantıdakıların səmərəsiz qurumda toplaşdıqları mesajını verdi. Səbəb isə bu idi – KTMT Azərbaycanın hərəkətlərinə qarşı adekvat siyasi qiymət vermir.

Qeyd etdiyimiz ritorika ötən müddətdə daha da gücləndi. Əgər başlanğıcda bu, Paşinyanın şıltaqlığı təəssüratı yaradırdısa, artıq erməni baş nazir davranışına, necə deyərlər, çəki-düzən verib. Moskvada da məsələnin ciddiliyini yaxşı anlayırlar. Ancaq, ümumən, Ermənistanın anti-Rusiya köklənişində KTMT kartının Qarabağ kartı qədər effektiv olduğunu söyləmək mümkünsüzdür. Yəqin, elə buna görə İrəvanın quruma qarşı əvvəlki zidd mövqeyi Rusiyada bir o qədər qıcıq doğurmurdu, elə ki, məsələ Qarabağ kartı ilə çulğalaşdı, Kremlin reaksiyaları kəskinləşməyə başladı. Moskvada da artıq tam dərk edirlər ki, Ermənistan hazırda Rusiyanın "izqoylaşdırılması" siyasətinin başlıca fiqurudur.

***

Rusiyaya ikinci Ukrayna lazım deyil. Amma ölkə prinsipsizlik də göstərə bilməz. Bu baxımdan, hansısa zəiflik uğursuzluq doğuracaq. Hərçənd, indiki durumda Moskvanın daha çox səbr eləməyə üstünlük verdiyini deyə bilərik. Əslində, iş səbrdən keçib, Kreml, sadəcə olaraq, dözür. Dözür və arada əks həmlələr də etməyi yaddan çıxarmır. Başa çatmaqda olan həftəmiz həmin əks həmlə səhnələri ilə yadda qaldı.

Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirdi ki, Moskva Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixdə imzaladıqları üçtərəfli Bəyanatla Qarabağı Ermənistana verdi. Əlbəttə, bu, kifayət qədər vulqar deyimdir. Simonyan həmişəki kimi, "ampluasına" sadiq qalaraq, belə demək mümkünsə, dozanı bir qədər artıq etdi. Ancaq, o, erməni ictimai rəyinin düşüncəsini açıqladı. Yəni, mövcud anlamda reallığı dilə gətirdi.

Simonyana cavab özünü çox gözlətmədi. Əvvəl Rusiyanın Xarici işlər naziri Sergey Lavrov, sonra Prezident Putin bildirdilər ki, Qarabağı Azərbaycana verən Ermənistanın özüdür. Onların hər ikisi fikirlərinin təsdiqi kimi, Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə ötən il oktyabrın 6-da keçirilmiş Praqa və bu il mayın 14-də gerçəkləşmiş Brüssel görüşlərini önə çəkdilər. Həmin görüşlər zamanı İrəvanın Qarabağı Azərbaycanın ərazisi kimi tanıdığını vurğuladılar. Üstəlik, sözlərindən belə çıxdı ki, Moskva Qarabağa status verilməsini təklif etmişdi, ancaq Ermənistan rəhbərliyi bununla razılaşmamışdı...

Əlbəttə, həm Putin, həm də Lavrov yaxşı anlayırlar ki, İrəvanın dərdi başqadır. Bunu təxmin etmək o qədər də çətin deyil. Birincisi, Ermənistan Rusiyanın vasitəçilik missiyasını dondurub. İkincisi isə ölkə Qarabağ sevdasının axtarışı üçün başqa yol müəyyənləşdirib. Elə bir yol ki, Kremli nəinki Bakı–İrəvan tənzimləməsindən uzaqlaşdırır, eyni zamanda, bütövlükdə, Cənubi Qafqazdan çıxarmağı hədəf seçir. Deməli, Qarabağ amili Rusiyanın haqqında söz açdığımız "izqoylaşdırılma"sında vasitəyə çevrilir.

Diqqət yetirək, bir neçə gün əvvəl ABŞ Senatında Qarabağla bağlı dinləmələr keçirildi. Aydın oldu ki, proses Azərbaycanla yanaşı, Rusiyaya da yönəlib. Dinləmələr, faktiki olaraq, Rusiyanı Qarabağa görə günahlandırmaq tribunası idi. Sən demə, Moskva üçtərəfli bəyanat çərçivəsində üzərinə düşən öhdəlikləri yerinə yetirə bilmirmiş. Əlbəttə, burada həqiqət var. Məsələn, Kreml Qarabağ ərazisindəki qeyri-qanuni erməni hərbi birləşmələrini çıxarmağı bacarmayıb, başqa vurğulanmalı məqamlar da var. Ancaq demək olmaz ki, Moskva öz missiyasına etinasız yanaşıb.

Yəni, Rusiyanın 2020-ci ildən başlayaraq, sülhməramlı kimi həyata keçirdiyi bütün tədbirlər, necə deyərlər, Ermənistanın könlünü almağa yönəlmişdi. Hətta, qeyri-qanuni erməni silahlı birləşmələrinə silah-sursat, texnika daşınmasına köməkdən tutmuş, Qarabağ ermənilərinə pampers paylanmasınadək gerçəkləşdirdiyi bütün tədbirlər onu deməyə əsas verir ki, Moskva Qarabağ müstəvisində erməni təəssübünü yetərincə çəkdi. Amma "əməyi" qiymətləndirilmədi. ABŞ Senatındakı dinləmələr də bunun təsdiqidir.

Bəli, iş o yerə çatıb ki, Rusiya Qarabağdakı sülhyaratma missiyasına görə, az qala, xəyanətdə günahlandırılır. Hər halda, Ermənistan rəhbərliyinin, eləcə də dünya erməniliyinin yaratdığı görüntü bunu deməyə əsas verməkdədir. Mövcud fonda Moskvanın Cənubi Qafqaz siyasi akvatoriyası üçün tam lazımsızlığı obrazı formalaşdırılır. Qalıb Paşinyanın ölkəsindəki 102-ci hərbi bazanı çıxarılmasını tələb etməsi. Heç şübhəsiz, hadisələr ona da doğru gedir. Bir halda ki, Rusiya sülhməramlıları erməni maraqlarını qoruya bilmirlər, Gümrüdəki 102-ci hərbi bazanın nə işə yaradığı sual oluna bilər. Məlumdur ki, həmin baza Rusiyanın Türkiyə təhlükəsindən sığortası məqsədilə oradadır. Nikol deyə bilər ki, Ankara ölkəsi üçün təhlükə törətmir. Buna qarşılıq Moskvanın hansısa arqumenti varmı? Xeyr!

Digər tərəfdən, məlumdur ki, üçtərəfli Bəyanat imzalananda Rusiyanın müharibəyə son qoyan obrazı meydana çıxdı. Bu obraz onun üçün müstəsna siyasi və mənəvi dividend idi. Əlbəttə, Ukrayna müharibəsi vəziyyəti xeyli dəyişdi. Ancaq Qərb total və hərtərfli xarakter daşıyan anti-Rusiya kampaniyasında Moskva üçün nəfəslik sayıla biləcək bütün nöqtələri tutmaqdadır. Bu baxımdan, "Qarabağda müharibəni dayandıran ölkə" imicinin müsbət tərəfləri də ləkələnməli idi. İndi aydın olur ki, həmin ləkənin çamuru rolunda oynayan məhz Ermənistandır.

Bəs, mövcud durumda Rusiya hansı addımlar ata bilər. Bu barədə söz açmazdan əvvəl Moskvanın Ukraynada müharibədən əvvəl dünya birliyi ilə təmaslarına diqqət yetirək. Kreml tam şəkildə agah etmək istəyirdi ki, beynəlxalq aləmin ona qarşı gəlməsi düzgün deyil. Hansı məqamda "qırmızı cizgilər"in keçilə biləcəyini açıqlayırdı. Rusiyanın nöqteyi-nəzərindən baxanda onun özünü haqlı sayması üçün əsaslar, kifayət qədər, çox idi. Yəni, ölkə Ukrayna müharibəsini yaradıb işğalçı kimi tanınmağı arzulamazdı. Reallıq budur ki, Rusiya buna getmək məcburiyyətində qaldı. Mövzuya dair müxtəlif məqamlardan söz açmaq mümkündür. Əsas məsələ isə budur ki, Kreml özünün qlobal maraqlarına təhdidlərin yarandığını gördü və qarşısını almağa girişdi.

***

İndi Ermənistanın sayəsində Cənubi Qafqazda Rusiya baxımından oxşar mənzərə formalaşdığı gün kimi aydındır. Heç bir siyasi konfrantasiyalarda iştirak etməyən, yalnız öz maraqlarının qorunmasına çalışan, oyun qaydalarına ciddi riayət edən Azərbaycandan fərqli olaraq, Ermənistan bütün prinsipləri pozmaqdadır. Üstəlik, mövcud proses Rusiyaya açıq demarş notları ilə yadda qalmaqdadır. Belə bir durumda Rusiya Ermənistana xəbərdarlıqlar ünvanlamaqla məşğuldur. Nəinki xəbərdarlıq edir, eyni zamanda, çox incə mətləblərə toxunaraq, onu sanki qəflət yuxusundan ayıltmağa çalışır.

Bu anlamda Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Ermənistan üçün fəlakət anonsuna Moskva–İrəvan yaxınlığı fonundakı sentimental motivləri əlavə etməsinə diqqət yetirək: "Belə əlaqələri bir və ya beş il ərzində qurmaq olmaz. Bu, tarixi bazadır. Bu, zamanla sınaqdan keçirilmiş hekayədir. Ən əsası, insanların ruhundan, ürəyindən gələn hekayədir. Bu, fürsətcillik deyil, haradasa proqramda yazılmır və həyata keçirilməsi insanların öhdəsinə buraxılmır. Bizim ölkədə insanlar belə düşünür, belə hiss edir, bu ölkəyə (Ermənistana – red.), bu insanlara (ermənilərə - red.) sevgi ilə yanaşırlar. Və hər şeyin üstündən xətt çəkmək... Mən ürəkdən ümid edirəm ki, Ermənistan rəhbərliyində heç kimin belə planı yoxdur".

Lavrovdan, Putindən sonra Zaxarova. Rusiya Ermənistana daha nə deməlidir ki, ölkə özünə yığışsın? Heç nə! Və belə bir durumda ABŞ Senatında Qarabağ müzakirələri təşkil olunur, Moskva ittiham edilir. Hələ bu azmış kimi, Paşinyan deyir ki, ölkəsi Rusiya Prezidentinin Ermənistana daxil olacağı təqdirdə dərhal həbsini nəzərdə tutan Roma statutunu ratifikasiya edəcək.

Bütün bunların fonunda Ermənistanın tam haqsız durumda olduğu Qarabağ məsələsi, Azərbaycan – Ermənistan qoşunlarının təmas xəttində, şərti sərhəddə gərginliyin artması, hər ötən günün yeni müharibə müjdəçisinə çevrilməsi və M.Zaxarovanın da haqqında söz açdığı fəlakət. Bəli, Ermənistanın tutduğu yol, məhz, fəlakət yoludur. İrəvan bütün addımları ilə fəlakətin ayaq səslərini eşitdirir. Bunu okeanın o tayında da eşidirlər. Ancaq Ermənistandakılar eşitmir, ona görə ki, "kar"dırlar.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ermənistan üçün sentyabr “hesabatları”

## Son illər payızın ilk ayı haylara düşmür

**Azərbaycanda deyirlər ki, “cücəni payızda sayarlar”. Yəni başlanılmış işə əvvəlcədən qiymət vermək yanlış addımdır. Son illər Ermənistanda isə hərbçi itkilərini payızda sayırlar. Yəni hər sentyabrda bir təxribata əl atırlar və dərhal da burunları əzilir. Sonra da övladı itkin düşmüş və ya həlak olmuş əsgər anaları Nikol Paşinyanın yaxasından yapışaraq orta ballıq zəlzələ kimi, onu silkələyirlər ki, bacarmayacaqdınsa, nə üçün balalarımızın qanına bais oldun?**

*Delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır.*

**Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüşdəki çıxışından 28 may 2023-cü il.**

Bədbəxt baş nazir cavab verə bilmir. Daha doğrusu, necə desin ki, mən özbaşına deyiləm, deyirlər təxribat törət, törədirəm. Demək olmur. Amma bilmək olur ki, son zamanlar Nikola əmr və göstəriş verənlərin sayı çoxalıb. Hətta, Ermənistan rəhbəri artıq eyni anda müxtəlif istiqamətlərə baxmaqdan elə çaşıb ki, nə danışdığını bilir, nə də hərəkətlərini. Bir gün Rusiyanın əleyhinə asıb-kəsir, ertəsi günü deyir ki, Ermənistandakı anti-Rusiya motivli çağırışların Vladimir Putinə dəxli yoxdur. Artıq bu hərzələrə ruslar da gülürlər, ermənilər də.

Qərəz, qayıdaq sentyabr məsələsinə. 2020-ci ilin sentyabrında Paşinyanın rəhbərliyi altında “irəli gedən” Ermənistanının təxribatları Azərbaycan tərəfindən necə qarşılanmışdısa, artıq dünyada bunu bilməyən yoxdur. Ona görə də detallara keçmədən xatırladaq ki, həmin ilin payızında Ermənistan üçün hesablanmalı faktlar o qədər çox oldu ki, hətta, sayıb qurtara bilmədilər.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında bildirilirdi ki, 2020-ci il sentyabrın 7-də ( yəni bizim cavab həmləmizin başlanmasından 20 gün əvvəl) Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı atıcı silahlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 50 dəfə pozublar. Ertəsi gün də işğalçı ölkənin silahlı qüvvələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı silahlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 57 dəfə pozmuşdular. Daha bir gün sonra – sentyabrın 9-da isə düşmən tərəfi atəşkəs rejimini 51 dəfə pozaraq hərbi təxribatlar törətmişdi. Yəni bizim səbr kasamızı daşırmaq istəyirdilər ki, cavab verək və “yeni ərazilər tutmaq üçün yeni müharibəyə başlamağa” bəhanələri olsun.

Bəs sonra nə oldu? İşğalçıların artan təxribatlarına cavab olaraq Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq 44 gün ərzində torpaqlarımızı erməni işğalından azad etdi. Həmin ilin 10 noyabr üçtərəfli Bəyanatına uyğun olaraq, hərbi əməliyyatlar dayandırıldı. Ermənistan bu müharibədə maddi-tex-



niki baxımdan nələri və nə qədər itirdiyini hələ də erməni xalqından gizlədir. Amma on illər boyu uydurduqları məğlubedilməz erməni ordusu mifi darmadağın oldu. Status məsələsi gorbagor edildi, beynəlxalq aləmdəki nüfuzları sıfırlandı və sair. Yəni həmin ilin payız hesablamaları onlara çox böyük problem yaratdı. O qədər itkinin hesabını necə aparmaq olardı ki?

2021-ci ilin payızında yenə də baş qaldırmaq istədilər və çox tez də geri çəkildilər. Daha doğrusu, irəli getməyə halları, imkanları yox idi. Ona görə də sadəcə fasilələrlə ərazilərimizə atəş açmaqla kifayətləndilər. Həmin il hesablamaları asan olmuşdu.

Dünyanın müxtəlif ölkələrindən və bir çox siyasi dairələrdən ruhlandırılan revanşistlər 2022-ci ilin sentyabrında da baş qaldırdılar. Düşmən həmin il sentyabrın 12-də ağır silahlarla ordumuzun mövqelərini atəşə tutdu. Azərbaycan əsgərinin cavabı isə sarsıdıcı oldu. 12-14 sentyabr tarixlərində davam edən döyüşlərdə erməni tərəfi 250-dək hərbçisini, xeyli texnikasını və mövqeyini itirdi.

Hərbi ekspertlər yazırlar ki, 2022-ci ilin sentyabrında Ermənistanın təxribatlarına cavab olaraq ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində düşmən Araz sahilindən Murova qədər 74 döyüş mövqeyini itirdi. 11 strateji yüksəklik və onların ətrafındakı onlarca hakim yüksəkliklər də Azərbaycan Ordusunun nəzarətinə keçdi. Bu döyüşlərdən sonra Azərbaycan Ordusu hazırkı Ermənistanın ərazisində yerləşən tarixi torpaqlarımıza geniş müşahidə imkanları əldə etdi.

İndi növbə 2023-cü ilin sentyabrına çatıb. Builki sentyabrın ilk iki günündə də Ermənistan “ənənəsinə” sadiq qalaraq, ordumuzun mövqelərini ağır silahlardan atəşə tutub. Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, düşmən tərəf sentyabrın ilk iki günündə Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən mövqelərini minaatanlardan, artilleriya silahlarından atəşə tutub, eləcə də zərbə PUA-lardan istifadə edib. Bu dəfə də rəşadətli ordumuz qarşı tərəfə layiqli cavab verdi. Belə ki, düşmənin 3 hərbçisi öldürüldü, biri isə yaralandı. Həmçinin bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar edilən PUA xüsusi vasitələrin tətbiqi ilə hədəfə çatmadan zərərsizləşdirilərək ələ keçirilib. Eləcə də Ermənistan ordusuna aid PUA-ların səyyar yerüstü idarəetmə stansiyası məhv edilib və əməliyyatın videogörüntüsü Müdafiə Nazirliyi tərəfindən yayılıb. Rəsmi məlumatlarda bildirilir ki, sentyabrın 2-dən sonra vəziyyət nisbətən səngisə də, erməni tərəfi hər gün bir neçə dəfə təxribatlar törədir, mövqelərimizi atəşə tutur. Ordumuz isə qarşı tərəfə tutarlı cavablar verir.

Yəni, düşmən Azərbaycan dövlətinin yaratdığı yeni reallıqlarla barışa bilmir və iddialarını davam etdirir. Bütün bunları nəzərə alan Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bu günlərdə yaydığı bəyanatda bildirilir ki, bu gün, Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar edilməsi istiqamətində göstərilən səylər Ermənistanın məqsədyönlü gərginlik və revanşizm siyasətinin qurbanına çevrilib və ciddi çağırışlarla üzləşir. Rəsmi İrəvan bölgədə “humanitar vəziyyətin pisləşməsi” və “davam edən blokada” ilə bağlı əsassız iddialarla əlaqədar BMT Təhlükəsizlik Şurasına müraciəti növbəti dəfə beynəlxalq tərəfdaşlar vasitəsilə balanslı, beynəlxalq hüquqa əsaslanan və məqbul həll yolu tapmağa yönəlmiş səylərə Ermənistanın qəsdən və məqsədyönlü şəkildə mane olduğu bir zamanda baş verir.

Xarici İşlər Nazirliyinin bəyanatında o da vurğulanır ki, Ermənistan Azərbaycan ərazisindən tam çıxarılmamış silahlı qüvvələrin ehtiyaclarını təmin və təchiz etməkdən, habelə Azərbaycanın təbii sərvətlərini qanunsuz olaraq istismar etməkdən məhrum olması reallığı ilə barışmayıb. Bu səbəbdən, Ermənistan bütün dünyada təbliğat kampaniyasına başlayıb, sərhəd-buraxılış məntəqəsinin normal fəaliyyəti, eləcə də Azərbaycanın Qarabağ bölgəsinə yüklərin çatdırılması üçün “Ağdam–Xankəndi” yolu kimi digər marşrutlardan istifadə edilməsinə qarşı bir sıra hərbi və digər maneələr törədir.

Bu zaman diqqət çəkən başqa bir məqam da var. Belə ki, hərdəmxəyallığı ilə məşhur olan Nikol Paşinyan Ermənistan ordusunun istənilən təxribatından sonra növbəti cəfəng bəyanatlarını dilə gətirir: “Bu əməlləri törədənlər revanşist, ruspərəst generallardır”.

Sonda Ermənistan rəhbərliyinə xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən il sentyabrın 27-də Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyandan sonra çıxışında demişdir ki, bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq: “Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən, hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır”.

Bəli, Azərbaycan dövləti, xalqımız və ordumuz işğalçı Ermənistandakı revanşistlərin bir daha baş qaldırmasına imkan verməyəcək. Onlara tövsiyəmiz odur ki, gedib son dörd ilin sentyabr hesabatlarına (əgər varsa–red.) diqqətlə baxsınlar. Nədənsə, son zamanlar sentyabr ayı onlara düşmür.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Lobbiçilik – hamının istifadə etməyə çalışdığı strateji güc

**(əvvəli 1-ci səhifədə)**

Yəqin, unutmamısınız: Bob Menendez 2010-cu ildə diplomat Metyu Brayzanın ABŞ-nin Bakıdakı səfiri olmasına qarşı çıxmışdı. Buna səbəb Brayzanın türk əsilli Zeyno Baranla evli olması idi. Həyat yoldaşı türk olan şəxsin Azərbaycanda Ermənistana qarşı daha aktiv mövqe tutacağından qorxan Menendez türklərə qarşı irqçi münasibətinin ilk işarəsini məhz o zaman vermişdi. Yaxşı, bu siyasətçinin türkü sevməməsinin arxasında tək arvadının erməni olmasımı dayanır, yoxsa ortada daha ciddi səbəblər var? Həmin ciddi səbəb lobbiçilikdir, bu gün ABŞ siyasətinə təsir göstərən basqı fəaliyyətidir.

Əslində, ortada gizlin heç nə yoxdur. Bob Menendezi bizə qarşı Səlib yürüşünə çıxmağa təhrik edən faktor pul və siyasi dəstəkdir. Məhz erməni lobbisinin göstərdiyi maliyyə yardımı və səsi ilə uzun illər Senatda yuva salmış bu senator demokratiyanın ana prinsipi sayılan ədalətə və həqiqətə arxa çevirir. Təəssüf ki, ABŞ-də siyasi lobbiçiliklə məşğul olan tək siyasətçi Bob Menendez deyil. Birləşmiş Ştatlarda lobbiçilik sıradan bir fəaliyyət sayılır. Vaşinqtonda siyasətçilərə təsir etməyə çalışan lobbiçilər bunu adətən müxtəlif qruplar üçün və pul qarşılığında edirlər. Birləşmiş Ştatların siyasətinin dayağı sayılan və dünyada başqa nümunəsi olmayan lobbiçilik institutu uzun illərdir ayrı-ayrı şəxslərin və qrupların marağının keşiyindədir. Təbii, ABŞ siyasətində böyük tarixə malik lobbiçilik həm də son dərəcə gəlirli bir işdir.

Maraqlıdır ki, indiyədək lobbiçiliyin harada və kim tərəfindən yaradılması barədə mübahisələr aparılır. İngilislərin fikrincə, “lobbiçilik” və “lobbiçi” terminləri onlara aiddir. Belə iddia olunur ki, əvvəllər müxtəlif dövlət qurumlarına gələn adi ərizəçilərə məhz belə ad verilirdi. O zaman, xüsusi qəbul otaqları yox idi, məmurlara və parlamentarilərə müraciət edənlərə ofisdəki otaqlara daxil olmağa icazə verilmədi. Buna görə də ərizəçilər müraciətlərini yüksək vəzifəli şəxsə çatdırmaq ümidi ilə keçidlərdə və dəhlizlərdə (lobbi) toplaşırdılar. Odur ki, ingilislərin fikrincə, lobbiçiliyin məhz “Dumanlı Albion”da meydana gəldiyini demək olar.

Okeanın o tayında isə ilk lobbiçilik fəaliyyətinin ABŞ-də olduğunu düşünürlər. Hətta “lobbiçilik” ifadəsinin ilk dəfə 1869-cu ildə ABŞ prezidenti Uilliss Qrant tərəfindən işlədildiyi iddia edilir. Rəvayətə görə, prezident Qrant Ağ Evin qarşısındakı “Willard” otelinin lobbisində dincəlir, viskisini içir və siqarından həzz alırdı. “Willard” otelinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Barbara Bahni həmin illəri belə təsvir edir: “Qrantın həyat yoldaşının onun Ağ Evdə siqar çəkməsindən xoşu gəlmirdi. Ona görə də Prezident Qrant “Willard” otelinin lobbisinə gəlməyi vərdiş halına saldı. Orada bir əlində siqar, digərində bir stəkan konyak ilə stulda əyləşirdi. Dövrün işbazları Prezidentin bu vərdişindən xəbər tutanda “Willard” lobbisinə axışmağa başladılar və növbə ilə prezidentə yaxınlaşaraq öz işlərini ona təqdim etdilər. Bu səbəbdən də Prezident Qrant onları “lobbiçilər” adlandırırdı”.

Bundan əlavə, indi dünyanın müxtəlif ölkələrində bu və ya digər dərəcədə qəbul edilən lobbiçilər üçün davranış qaydalarını ilk dəfə məhz amerikalılar hazırlamışdılar. “Lobbiçilik fəaliyyəti haqqında” ilk ümumamerika qanunu hələ 1876-cı ildə qəbul edilmişdi. Buna uyğun olaraq, öz adından və ya üçüncü tərəfin adından fəaliyyət



göstərən hər bir lobbiçidən Konqresin Nümayəndələr Palatasında rəsmi qeydiyyatdan keçməsi tələb olunurdu.

1946-cı ildə bu gün də qüvvədə olan “Lobbiçilik fəaliyyətinin tənzimlənməsi haqqında” federal qanun qəbul edilmişdi. Hazırda rəsmi lobbiçilərin qeydiyyatının sərtləşdirildiyi iddia olunur. İndi onlardan nəinki hesabat vermələri tələb olunur, həm də kimin adından işlədiklərini, gördükləri işin müqabilində nə qədər pul aldıqlarını və lobbiçilik fəaliyyətinə nə qədər pul xərclədiklərini göstərməlidirlər.

Bir sözlə, lobbiçilik ABŞ-nin siyasi sisteminin bir hissəsidir. Bu gün lobbiçilərin Vaşinqtonda toplaşdıqları bildirilir. Lobbiçilərin ofisləri əsasən paytaxtın mərkəzindəki çox da uzun olmayan K adlı küçədə yerləşir. Siyasi proseslərdə pul axınlarını izləyən mütəxəssislərin fikrincə, lobbiçilər ABŞ həyatının bütün aspektlərində böyük rol oynayırlar. Buna görə də, ekspertlər son illər lobbiçilərin sayının xeyli artdığını da vurğulayırlar. Siyasət və pul münasibətlərini öyrənən analitiklər ABŞ-də, demək olar ki, hər kəsin lobbiçilərlə əlaqəsi olduğunu bildirirlər.

Mütəxəssislərin sözlərinə görə, neft sənayesindən tutmuş əczaçılıq və müdafiə sənayesinə qədər hər bir sektorun öz lobbiçiləri var. Konqresdə qanunvericilərin lobbiçiliyi ilə yanaşı, “xüsusi maraq qrupları” icra hakimiyyətinə təsir göstərməyə çalışırlar. Çünki onların müştərilərinin taleyi konkret qanunun necə şərh edilməsindən və ya həyata keçirilməsindən asılıdır.

Analitiklər, həmçinin vurğulayırlar ki, hazırda Vaşinqtonda ən nüfuzlu lobbiçilər keçmiş konqresmenlər, senatorlar və hökumət rəsmiləridir. Lobbiçilik vasitəsilə hökumətə təzyiq Amerika demokratik prosesinin bir hissəsinə çevrilsə də, bir çoxları lobbiçilərin fəaliyyəti ilə bağlı bir sıra qalmaqalların bu peşənin reputasiyasını xeyli dərəcədə ləkələdiyi fikri ilə razılaşırlar.

Zaman-zaman ABŞ-də korrupsiya qalmaqalları baş qaldırır ki, onların “qəhrəmanları” tanınmış siyasətçilər və məmurlar, həmçinin müəyyən “təzyiq qrupları”nın maraqlarını təmsil edən lobbiçilər olur. Rəsmi lobbiçiliyin əleyhdarları hesab edirlər ki, peşəkar lobbiçilər sistemi qüsurludur. Belə vurğulanır ki, böyük şirkətlərin öz lobbiçiləri var. Bundan əlavə, onlar uyğun qərarın qəbuluna nail olacaq istənilən mütəxəssisi işə götürə bilirlər.

Beləliklə, deyə bilərik ki, ABŞ-də lobbiçilik ən nüfuzlu siyasi institutlardan biridir. Lobbi təşkilatları hazırda siyasi qərarların qəbuluna güclü təsir göstərirlər. Bunu erməni lobbisinin timsalında aydın şəkildə görmək mümkündür. Erməni lobbisinin ABŞ Konqresi ilə əlaqələrinin həmişə güclü olması heç kimə sirr deyil. Amerikada maddi imkanları və əhalisi məhdud olsa da, ermənilər müəyyən seçki dairələrində cəmləşərək, seçki kampaniyalarında iştirak etməklə bunu kompensasiya etməyə çalışırlar. Erməni lobbisi Türkiyə ilə yanaşı, Azərbaycana da qarşı ciddi təbliğat aparır. Ermənistanın Azərbaycan torpaqlarının işğal etdiyi müddətdə erməni lobbisi ABŞ administrasiyasına bu və ya digər qərarların qəbul edilməsində təsir göstərmişdi.

Ancaq 2020-ci ilin sentyabrında başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində erməni lobbisi ABŞ-nin siyasətini səfərbər edə bilmədi. Bütün təzyiqlərə rəğmən Azərbaycan Ermənistanın 30 illik işğalına son qoymağı bacardı. Amma erməni lobbisinin bizə qarşı müharibəsinə son qoyulmadı və bu düşmən siyasət hələ də davam edir. Ona görə də, Azərbaycan və Türkiyə bu destruktiv qüvvəni neytrallaşdırmaq üçün bundan sonra da fəal siyasət yürütməlidir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Paşinyan hindistanlıların ümidinə qalıb

**Bu gün İrəvan Ağsaqqallar Şurasına seçki keçiriləcək. Kollegial qaydada İrəvanı idarə edən 65 üzvdən ibarət şuraya seçki haylar üçün ona görə əhəmiyyətlidir ki, daha çox yer qazanan siyasi partiya sonradan şəhər merinin kim olacağını müəyyənləşdirəcək. Şura üzvlərinin say tərkibi və merin hansı düşərgəyə mənsub olması Ermənistandakı siyasi qüvvələr üçün mühüm əhəmiyyət kəsb edən məsələdir. Bu baxımdan, siyasi qüvvələr seçkiqabağı təşviqat kampaniyasına start verildiyi avqustun 22-dən etibarən 25 gün ərzində İrəvan sakinlərini onlara səs verməyə inandırmağa çalışıblar.**



Seçkiqabağı təbliğat-təşviqat kampaniyası sentyabrın 15-də başa çatıb. Dünən İrəvanda "sükut günü" idi. Seçkidə, ümumilikdə, 14 siyasi qüvvə – 13 partiya və 1 blok iştirak edir.

Hakim "Mülki müqavilə" partiyasının siyahısındakı bir nömrəli namizəd indiyədək İrəvan merinin müavini olan Tiqran Avinyandır. Onun hakimiyyətin namizədi olacağı bir il əvvəldən açıqlanmışdı.

Qeyd edək ki, T.Avinyan baş nazir Nikol Paşinyanın yaxın silahdaşlarından biridir. O, 1989-cu ildə İrəvanda doğulub. 2009-cu ildə Rusiya–Ermənistan Universitetinin tətbiqi riyaziyyat fakültəsindən məzun olub. 2014-cü ildə Londonda yerləşən Kraliça Mariya Universitetini iqtisadiyyatın riyazi modelləşdirilməsi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2010-2011-ci illərdə "Irigate" suvarma sistemlərinin quraşdırılması və landşaft dizaynı üzrə kompaniyaya rəhbərlik edib. 2014-cü ildən "Cyber Vision" proqram təminatı şirkətinin baş direktoru olub. Hakim "Mülki müqavilə" partiyasının yaradıcılarındandır. 2017-ci ildə "Yelk" blokundan Ağsaqqallar Şurasının üzvü seçilib. 2018-ci ilin mayından 2021-ci ilin avqustunadək Ermənistan baş nazirinin müavini olub. 2022-ci il sentyabrın 23-də Ağsaqqallar Şurasının qərarı ilə İrəvan merinin müavini təyin edilib.

2021-ci ildə hakim qüvvə tərəfindən İrəvan meri vəzifəsindən uzaqlaşdırılan Hayk Marutyan "Milli tərəqqi" partiyasının siyahısında bir nömrəli namizəddir. O, istefa verdikdən sonra mer kimi fəaliyyətinin nəticələrinə yekun vuran monotamaşa ilə çıxış edib. Son tamaşadan sonra elə teatr səhnəsindən seçkilərdə iştirak edəcəyini açıqlayıb. Son günlər yumoristik tamaşadan müxtəlif fraqmentlər dərc edib, onlardan birində İrəvanı bürüyən qanunsuz tikililərdən danışıb.

Bələdiyyə seçkilərində "Ana Ermənistan" blokuna rəhbərlik edən "Hayastan" müxalifət fraksiyasının deputatı Andranik Tevanyan da paytaxtın meri olmaq istəyir. Tevanyan deputat mandatından imtina edib. Blok İrəvan Ağsaqqallar Şurasına seçkilərə hakimiyyət dəyişikliyinə nail olmaq vasitəsi kimi baxır.

"Respublika" partiyasının siyahısına keçmiş ədliyyə naziri, hüquqşünas Artak Zeynalyan başçılıq edir.

"Həyat üçün ölkə" partiyasının sədri Mane Tandilyan da mer postuna namizəddir. Bu qüvvəni Qarabağdakı qondarma separatçı rejimin sabiq "dövlət naziri", oliqarx Ruben Vardanyan dəstəkləyir. Vardanyan İrəvan Ağsaqqallar Şurasına seçkiləri Qarabağ məsələsi ilə əlaqələndirərək, bunun "Artsaxdan imtina edən qüvvənin siyasi səhnədən kənarlaşdırılması istiqamətində ilk addım ola biləcəyini" deyib.

Tandilyan özü də Paşinyanın devrilməsi məsələsində Vardanyandan geri qalmır. O, seçkiqabağı kampaniya zamanı bildirib ki, mandatı hakimiyyətin dəyişdirilməsinə xidmət edəcək siyasi qüvvəni seçmək lazımdır. "Azadlıq" radiosunun erməni xidmətinin sualını cavablandıran Tandilyan qeyd edib ki, onların siyasi qüvvəsi İrəvanın problemlərini Ermənistanın üzləşdiyi təhlükəsizlik problemlərindən ayırmaq istəmir, Qarabağ məsələsi isə partiyanın diqqət mərkəzində (?) olacaq.

Merliyə namizəd onu da deyib ki, 50 faizdən çox səs toplamasa, "Mülki müqavilə"yə qoşulmayacaq. Ancaq o, müxalif qüvvələrə, xüsusən də müxalifətin əsas namizədi olan Hayk Marutyanın rəhbərlik etdiyi "Milli tərəqqi"yə qoşulub-qoşulmayacağı sualına cavab olaraq bunu istisna etmədiyini bildirib.

"İşıqlı Ermənistan" partiyası da seçkilərdə iştirak edir. Bu partiyanın siyahısında birinci yerdə dayanan Ağsaqqallar Şurasının üzvü David Xacakyandır.

Seçkidə, həmçinin Ermənistan Avropa Partiyası, "Vahid Ermənistan", "Demokratik konsolidasiya", "Sosial ədalət uğrunda", "Vətənin gücü", "Qələbə", "İctimai səs" və "Ədalətli Ermənistan" partiyaları da iştirak edirlər.

***

Qeyd edək ki, "Mülki müqavilə" seçkiqabağı dövrdə aktiv təbliğat-təşviqat kampaniyası aparıb: media subyektlərində və sosial şəbəkələrdə müxtəlif videroliklər, reklamlar yayımlanıb, seçicilərlə görüşlər keçirilib və sair. Ancaq hüquq müdafiəçiləri kampaniya zamanı Avinyanın xeyrinə inzibati resurslardan sui-istifadənin olduğunu bildirirlər. Xüsusilə, seçkiləri müşahidə edən "Müstəqil müşahidəçi" bloku T.Avinyan barədə il ərzində İrəvan meriyasının rəsmi səhifələrində çox tez-tez müsbət xəbərlər paylaşıldığını sübut edən genişhəcmli araşdırma dərc edib. Belə ki, paylaşımlarda Tiqranın adı keçmiş mer Qraçya Sarkisyanın və hazırda mer səlahiyyətlərini icra edən Levon Ovannisyanın adından daha çox çəkilib.

"Hakim partiyanın namizədinin İrəvan Ağsaqqallar Şurasına seçkilərdə əldə etdiyi üstünlüyü qeyd olunan inzibati resursdan istifadə etməklə ölçmək çətindir. Lakin bu resurslardan istifadənin məqsədyönlü, sistemli şəkildə təşkil olunduğu göz qabağındadır", – deyə seçki prosesini izləyən təşkilatın koordinatoru Daniel İoannisyan bildirib. O əlavə edib ki, Avinyan bu yolla İrəvan meri postuna əsas iddiaçıya çevrilib. Onun rəqibləri isə Tiqranın başlanğıc üstünlüyü şəraitində hərəkət etməyə məcbur olublar.

Onu da qeyd edək ki, sentyabrın 15-də "Mülki müqavilə"nin İrəvanda yürüşü olub. Yürüş təbliğat mitinqi ilə başa çatıb. Ermənistan mediası və seçkidə iştirak edən digər qüvvələr, habelə müstəqil ekspertlər dövlət işində çalışan işçilərin avtobuslarla hakimiyyətin mitinqinə aparıldığını bildiriblər.

"Müstəqil müşahidəçi"nin koordinatoru D.İoannisyan deyib ki, inzibati resursdan bu cür sui-istifadə hallarını görmək onlar üçün bir az gözlənilməz olub: "Bizə bugünkü (sentyabrın 15-dəki-S.H.) mitinqlə bağlı çox adam müraciət edib. Nəinki anonim siqnallar daxil olub, həm də konkret adlar var. İnsanlar hətta, adlarının dərcinə də hazırdırlar. Hər halda, biz bu şəxslərin verdiyi məlumatları yoxlamaq məcburiyyətindəyik".

İoannisyan bildirib ki, seçki kampaniyası dövründə hakimiyyətin namizədinin İrəvanın inzibati rayonlarında keçirilən mitinqlərində çoxlu sayda dövlət qulluqçusunun iştirakı qeydə alınıb. Onun sözlərinə görə, bu, onların müşahidəçiləri tərəfindən də təsdiqlənib: "Tiqran Avinyan seçki kampaniyasının son günü Politexnik İnstitutunun tələbələri ilə görüşüb. Avinyanla görüşən tələbələrin bəziləri onları heç kimin bu görüşdə iştiraka məcbur etmədiyini, bəziləri isə dekanlığın görüşdə iştiraka çağırdığını, dərsə gəlməmələrini üzürlü sayacaqlarını vəd etdiyini bildirib".

"Müstəqil müşahidəçi" seçki kampaniyası dövründə inzibati resurslardan istifadə ilə bağlı hüquq-mühafizə orqanlarına 4 müraciət edib ki, onlardan da ikisi hakimiyyətlə bağlıdır.

"Luys" Fondunun nümayəndəsi Narek Tadevosyan isə hakimiyyətin inzibati resurslardan istifadəsi ilə bağlı sentyabrın 15-də səhər "Facebook" səhifəsində yazıb: "Bu gün səhərdən İrəvan meriyasının "başbilənləri" yürüş-mitinqdə iştirak etmək üçün adam toplamaq kimi mühüm işlə məşğuldurlar. Rəhbər işçilərə mümkün qədər çox işçinin iştirakını təmin etmək tapşırılıb. Həmçinin yürüş və mitinq zamanı ictimaiyyətin diqqətini cəlb etməmək üçün işə qeyri-rəsmi geyimdə gəlmələri tapşırılıb. Eyni zamanda, işçilərə bu gün işi bir saat tez bitirib lazımi yerdə ola biləcəkləri bildirilib. Onların yoxluğunun gələcək karyeralarına təsirsiz ötüşməyəcəyi barədə xəbərdarlıq edilib. İrəvan meriyasında çalışan keçmiş həmkarlarımı təslimçi hakimiyyət orqanları tərəfindən təşkil olunan heç bir yürüş-mitinqdə nəyin bahasına olursa-olsun iştirak etməməyə çağırıram. Eyni zamanda, xatırladıram ki, hüquq və vəzifələriniz Ermənistanın "Dövlət qulluğu haqqında" qanununda təsbit olunub".

Politoloq Narek Samsonyan isə yazıb ki, "Mülki müqavilə"nin yürüş-mitinqində iştirak edənlərin sayı əsas müxalifət qüvvələrinin keçirdiyi aksiyalarda iştirak edənlərdən dəfələrlə aşağıdır və bu, hətta adi gözlə də aydın görünür: "Faktiki olaraq, işdən çıxarılma hədələrindən və inzibati resurslardan istifadədən sonra belə Paşinyanla yanaşı duranların sayı müxalifəti dəstəkləyən vətəndaşların sayından dəfələrlə azdır. Kütləvi yürüşdə iştirak edənlərin sayından hindistanlıları çıxsaq, şəhərdə Paşinyanı dəstəkləyənlərin sayının on dəfə azaldığını deyə bilərik".

O, yürüşdə iştirak edən Hindistan vətəndaşlarının fotosunu da paylaşımına əlavə edib. Vahe Movsisyan adlı istifadəçi isə yürüşə qatılan hindistanlıların hər birinə 800 dram ödənildiyini bildirib.

Onu da qeyd edək ki, İrəvan Ağsaqqallar Şurasına seçki sonuncu dəfə 2018-ci il sentyabrın 23-də keçirilib. Həmin seçkidə Paşinyanın "Mülki müqavilə" partiyasının daxil olduğu "Mənim addımım" bloku böyük qələbə qazanmışdı. Blok şuradakı 65 yerdən 57-nə sahib olmuşdu. Baş nazirin son illərdə yürütdüyü uğursuz xarici siyasət, o cümlədən, Azərbaycanla münasibətlərdəki destruktiv mövqeyi onun reytinqinin xeyli aşağı düşməsinə gətirib çıxarıb. Paşinyanın bu seçkidə əvvəlki uğuru təkrarlamağı bacarıb-bacarmayacağı şübhəlidir.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**Zaur MƏMMƏDOV,**
**politoloq**

– İrəvan Ağsaqqallar Şurasına keçirilən seçkiyə həm iqtidar, həm də müxalifət ciddi yanaşır. Ona görə ki, qarşıdakı dövrdə Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticəsi, həm də, bu gün keçiriləcək seçkidən asılı olacaq. Ölkənin paytaxtında toplanan səslər olduqca mühüm əhəmiyyət daşıyır.

Nikol Paşinyan onun hakimiyyəti illərində Ermənistanda keçirilən bu və ya digər seçkiləri demokratik adlandırır və ölkəsini sivil dövlət kimi qələmə verməyə çalışır. Əslində isə seçkiqabağı təbliğat-təşviqat kampaniyasından da göründüyü kimi, inzibati resurslardan hakimiyyət namizədinin xeyrinə sui-istifadə olunur. Şansı böyük olan namizədlər sıxışdırılır. Namizədlərə bərabər imkanlar yaradılmır. Bu, Ermənistanda uzun illər sınaqdan çıxarılmış siyasi texnologiyadır. Təəssüf ki, Paşinyan iqtidarı da ondan istifadə edir. Seçkinin nəticəsinə müxtəlif vasitələrlə təsir edirlər. Paşinyan rəqiblərinin önünü müxtəlif qanunazidd üsullarla kəsir. Ancaq "Mülki müqavilə"nin son yürüş-mitinqi də göstərdi ki, İrəvan sakinləri daha Paşinyanı əvvəlki kimi dəstəkləmirlər. Eyni zamanda, seçkilər saxtalaşdırılsa, dinc yürüş-mitinqlər kütləvi iğtişaşlara çevrilə bilər.

# ABŞ-nin işğalçı Ermənistana dəstəyi Azərbaycana xəyanətdir

## *Bu addım Azərbaycanın son 30 ildə Ağ Evin sədaqətli tərəfdaşı olmasının mükafatıdırmı?*



**(əvvəli 1-ci səhifədə)**

Lakin 2001-ci ilin 11 sentyabrında Nyu-Yorkdakı məşum terror aktından sonra ABŞ-nin yaratdığı anti-terror kolalisiyaya qoşulan ilk ölkə Azərbaycan olmuşdu. Əvəzində, Minsk qrpupunun həmsədri olan ABŞ Qarabağ münaqişəsinin həlli istiqamətində bircə addım da olsun atmadı.

Bu gün dünya şahiddir ki, ABŞ rəsmiləri Ukraynanın, Moldovanın, Gürcüstanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Biz bundan narahat deyilik, əksinə, sevinir və alqışlayırıq. Ancaq bizi narahat edən odur ki, ölkəmizin BMT-nin də tanıdığı ərazi bütövlüyü pozulanda, açıq-aşkar işğal 30 il davam edəndə öz maraqlarını əsas tutan ABŞ Azərbaycana heç bir dəstək vermədi, daha çox işğalçı Ermənistanı dəstəkləyən addımlar atdı. Azərbaycanlı mütəxəssislər haqlı olaraq yazırlar ki, bu gün ABŞ-dən Ukraynaya verilən dəstəyin cüzi hissəsi Azərbaycana olsaydı, torpaqlarımız uzun onilliklər işğal altında qalmazdı.

Yəni Vaşinqtonun son onillərdə səsləndirdiyi "Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik", "Azərbaycan dövləti ilə bundan sonra da əlbir işləməyə hazırıq" kimi ifadələr, sadəcə, riyakarlıq, başaldatmaq əlamətləri idi. Vaşinqton həmin tezisləri bir məqsədlə dilə gətirirdi: "Azərbaycan Ağ Evin Avropadakı müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin edilməsində fəal iştirak etsin." Ancaq bu, o demək deyil ki, onlar bizi aldadıblar və ya rəsmi Bakı öz dövlət maraqlarımıza uyğun olmayan hansısa addımı atıb. Qətiyyən elə deyil.

Azərbaycan öz karbohidrogen ehtiyatlarını kiməsə satmalı idi və xalqımızın, dövlətimizin maraqlarını nəzərə alaraq biz həmin sərvətimizi Avropaya çatdırmaq üçün lazım olan bütün addımları atmışıq. Məhz həmin uğurlu siyasətimizin nəticəsidir ki, Avropa İttifaqına üzv olan dövlətlərdən 9-u Azərbaycanın strateji tərəfdaşıdır.

Biz ölkəmizin karbohidrogen ehtiyatlarını ABŞ-nin Avropadakı müttəfiqlərinə göndərəndə işğalçı Ermənistanın emissarları da ABŞ-a səfər edərək "Qarabağa yardım" adı altında vəsait toplayırdılar. Məhz ABŞ-də Qarabağdakı cinayətkar rejimin ofisi yaradılmışdı. Rejimin "nümayəndələri" Amerikaya səfər edərək ayrı-ayrı səviyyələrdə görüşlər keçirirdilər. Bütün bunlar Ermənistan – Azərbaycan münaqişəsinin həllinə ABŞ-nin tormozlayıcı münasibətinin göstəricisidir.

ABŞ rəsmiləri üzdə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edərək, arxada Ermənistan və Qarabağdakı separatçı rejimə yardım edəndə rəsmi Bakı Əfqanıstandakı antiterror əməliyyatları üçün öz hava yollarını koalisiya qüvvələri üçün açmışdı. Bütün bunları ABŞ və Ermənistan da daxil olmaqla, dünyada bilməyən yoxdur. İndi ABŞ rəsmilərinin 2020-ci ildə böyük məğlubiyyətlə üzləşmiş Ermənistan ordusunu dirçəltmək istəyi və cəhdi, sadəcə, üzdəki "dostun, tərəfdaşın, həmfikirin" öz tərəf-müqabilinə xəyanətidir. Vəssalam.

Sonda bir məqamı da yada salaq. SSRİ dağlandan sonra, guya, dünyada haqq-ədaləti bərqərar etmək missiyasını üzərinə götürən ABŞ mövcud və yeni daxil olduğu hansı ölkəyə xoşbəxtlik gətirib? Son 30 ildə dünyada hansı problem həll olunub? İraqda, Suriyada, Əlcəzairdə, Əfqanıstanda, Liviyada, Misirdə, guya, özlərinin dedikləri kimi diktatura rejimini dəyişirdilər. Məgər bu ölkələrdə vəziyyət xalqın xeyrinəmi dəyişdi? Hələ də bu ölkələrdə hər gün yüzlərlə dinc insan ölür. Elə Ermənistanda da nəyəsə nail ola bilməyəcəklər.

Azərbaycanlı ekspertlər, haqlı olaraq, soruşurlar ki, həmin qara günə qoyulmuş ölkələrdəki insanların haqqı, hüququ yoxdurmu? Amerika hansı üzlə bizə demokratiya, insan hüquqlarının qorunması dərsi keçmək istəyir? Azərbaycanın 1 milyon insanı 30 ilə yaxın qaçqın, köçkün vəziyyətində yaşadı. Onların günahı nə idi? Erməni vandalları 20 faiz ərazimizi cəhənnəmə döndərəndə ABŞ rəsmiləri niyə buna etiraz etmədi? Bizim şəhər və kəndlərimizin günahı nə idi ki, yerlə- yeksan elədilər? İndi ABŞ-nin həmin vəhşilikləri törətmiş qəbilə xislətli toplumun yağmaçı ordusunu yenidən dirçəltməkdə niyyəti nədir?

Hansı məqsədləri güdürlərsə, güdsünlər. Azərbaycan artıq onların güman etdikləri dövlət deyil. Elə ermənilər də onların güman və etibar etdikləri kimi deyil. Ermənilər günün birində mütləq ABŞ-yə də xəyanət edəcəklər. Azərbaycana, Türkiyəyə, Gürcüstana, Rusiyaya xəyanət edərək çox "böyük təcrübə" qazanmış ermənilərin tezliklə Ağ Evin də üzünə ağ olacaqları gün kimi aydındır.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 326** **Bakı şəhəri, 14 sentyabr 2023-cü il**

**"Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi Qaydası"nın təsdiq edilməsi və "Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 19 avqust tarixli 310 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2008 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 19 avqust tarixli 310 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunve-ricilik Toplusu, 2016, № 8, maddə 1447; 2017, № 8, maddə 1630; 2018, № 10, maddə 2157) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 328** **Bakı şəhəri, 14 sentyabr 2023-cü il**

**"Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatla-rına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 7.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezi-dentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 329** **Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 682-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 790; 2018, № 12 (II kitab), maddə 2741; 2021, № 3, maddə 281; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bəndə "sayının" sözündən sonra "(Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək fəaliyyətinə cəlb edilənlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 1.6-cı bəndə "çərçivəsində" sözündən sonra "(Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək fəaliyyətinə cəlb edilənlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.3. 3.1-ci bəndə ikinci halda "işçi qüvvəsinə" sözlərindən sonra "(o cümlədən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində)" sözləri əlavə edilsin;

1.4. 4.4.3-cü yarımbəndə "məlumatları" sözündən sonra "(bu Qaydanın 4.4.3-1-ci yarımbəndində göstərilən məlumatlar istisna olmaqla)" sözləri əlavə edilsin;

1.5. aşağıdakı məzmunda 4.4.3-1-ci yarımbənd əlavə edilsin:

"4.4.3-1. haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi almış Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək fəaliyyətinə cəlb edilən əcnəbilərin mənşə ölkələri və iqtisadi fəaliyyət növləri üzrə sayı haqqında məlumatları;";

1.6. həmin Qaydaya əlavənin ikinci cədvəlinə "o cümlədən, əcnəbilər" sütunundan sonra "onlardan Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək fəaliyyətinə cəlb olunması nəzərdə tutulan əcnəbilər" sütunu əlavə edilsin.

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir və 2028-ci il yanvarın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 330** **Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli, "Məzuniyyət vaxtı üçün orta əməkhaqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin müəyyən edilməsi və məzuniyyət vaxtı üçün orta əməkhaqqının əmsallaşdırılması qaydasının təsdiq edilməsi barədə" 1999-cu il 25 avqust tarixli 137 nömrəli, "Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənclərin müəyyən edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 126 nömrəli, "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 23 may tarixli 97 nömrəli, "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əməkhaqqının və (və ya) başqa gəlirlərinin növlərinin müəyyən edilməsi barədə" 2001-ci il 23 may tarixli 98 nömrəli və "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 626-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596; 2000, № 10, maddə 764; 2001, № 3, maddə 214; 2003, № 6, maddə 342; 2005, № 7, maddə 661, № 9, maddələr 857, 858, № 12, maddə 1244; 2006, № 1, maddə 58, № 3, maddə 291, № 4, maddə 370, № 9, maddələr 819, 821, № 10, maddələr 902, 903; 2007, № 2, maddələr 185, 188, № 5, maddə 544; 2008, № 2, maddələr 114, 129, 130, № 9, maddə 853; 2009, № 10, maddə 857; 2010, № 3, maddələr 263, 264, № 8, maddə 763, № 12, maddə 1123; 2011, № 5, maddə 449, № 7, maddə 742; 2012, № 2, maddə 180, № 7, maddə 773; 2014, № 4, maddə 459; 2016, № 7, maddə 1343, № 11, maddə 1973; 2017, № 4, maddə 610, № 5, maddə 995, № 9, maddə 1728, № 10, maddə 1913, № 12 (II kitab), maddə 2548; 2018, № 6, maddə 1348, № 9, maddə 1903, № 11, maddə 2458, № 12 (II kitab), maddə 2736; 2019, № 4, maddə 781, № 7, maddə 1319; 2020, № 4, maddə 480, № 9, maddə 1232, № 10, maddə 1273; 2021, № 3, maddə 275, № 7, maddə 875, № 9, maddə 1060, № 10, maddələr 1164, 1192, 1195; 2022, № 8, maddə 1007, № 9, maddə 1098) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablan-ması və ödənilməsi haqqında Əsasnamə"nin 84-cü hissəsində "istehsalatdan ayrılmaqla" sözləri "istehsalatdan tam və ya qismən ayrılmaqla" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 25 avqust tarixli 137 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 532; 2003, № 12 (II kitab), maddə 746; 2005, № 2, maddə 125; 2007, № 2, maddə 185; 2008, № 9, maddə 865; 2009, № 6, maddə 490, № 10, maddə 857; 2023, № 6, maddə 845) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin geniş Siyahısı"nın "Nəzərə alınmayan ödənişlər:" hissəsinin on ikinci abzasında "istehsalatdan ayrılmaqla" sözləri "istehsalatdan tam və ya qismən ayrılmaqla" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli 126 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 573; 2003, № 12 (II kitab), maddə 746; 2005, № 2, maddə 125; 2007, № 2, maddə 185; 2008, № 9, maddə 865; 2009, № 6, maddə 490, № 10, maddə 857; 2023, № 6, maddə 845) ilə təsdiq edilmiş "Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənclərin Siyahısı"nın "Nəzərə alınmayan ödənclər:" hissəsinin on beşinci abzasında "istehsalatdan ayrılmaqla" sözləri "istehsalatdan tam və ya qismən ayrılmaqla" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 347; 2010, № 3, maddə 258) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.4-cü bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İşçinin tutduğu vəzifəyə uyğunluğu müəyyən edilərkən onun son 5 (beş) il ərzində peşə hazırlığı səviyyəsinin yüksəldilməsinin, yeni ixtisasa yiyələnməsinin və ixtisasının artırılmasının nəticələri nəzərə alınır.";

4.2. 2.6-cı bəndin dördüncü abzasının birinci cümləsində "ixtisasını artırmağa göndərmək" sözləri "işçini peşə hazırlığının yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi və ixtisasının artırılması üçün təlimlərə cəlb etmək" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 348; 2004, № 9, maddə 747; 2005, № 12, maddə 1244; 2006, № 9, maddə 819; 2007, № 2, maddə 185; 2008, № 8, maddə 780; 2009, № 10, maddə 857; 2017, № 9, maddə 1739, № 12 (II kitab), maddə 2549; 2020, № 10, maddə 1269; 2021, № 5, maddə 507) ilə təsdiq edilmiş "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri"nin 5-ci hissəsinin on birinci abzasında "istehsalatdan ayrılmaqla" sözləri "istehsalatdan tam və ya qismən ayrılmaqla" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 829; 2018, № 11, maddə 2429, № 12 (II kitab), maddə 2739; 2019, № 12, maddə 2099; 2020, № 8, maddə 1108, № 9, maddə 1221) ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın 3.1.4-cü yarımbəndinin ikinci cümləsinə "istehsalatdan" sözündən sonra "tam" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 331** **Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ovçuluqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli, "Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları"nın və "Ovçuluq təsərrüfatları haqqında Əsasnamə"-nin təsdiq edilməsi haqqında" 2005-ci il 27 yanvar tarixli 10 nömrəli və "Azərbaycan Respublikasında elektron imza və elektron sənədlə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 28 yanvar tarixli 27 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lotereyalar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ovçuluq haqqında", "Fövqəladə vəziyyət haqqında", "Mühasibat uçotu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 815-VIQD nömrəli Qanu-nunun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 759, № 12, maddə 1079; 2005, № 6, maddə 535; 2007, № 10, maddə 1013; 2008, № 2, maddə 132; 2015, № 4, maddə 472; 2017, № 9, maddə 1761; 2022, № 4, maddə 408; 2023, № 2, maddə 314) ilə təsdiq edilmiş "Ovçular cəmiyyətlərinin ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili və idarə edilməsində iştirak etməsi Qaydası"nın II hissəsinin on birinci abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 54, № 6, maddə 535; 2008, № 2, maddə 132; 2014, № 11, maddə 1511; 2017, № 9, maddə 1761) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları"-nın 2.2-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasında elektron imza və elektron sənədlə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 56; 2008, № 1, maddə 39; 2014, № 6, maddə 747, № 9, maddə 1124; 2016, № 1, maddə 173; 2017, № 3, maddə 480; 2019, № 1, maddə 158, № 5, maddə 957, № 9, maddə 1536; 2022, № 4, maddə 391) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Elektron imza üçün sertifikat verən və imzaların istifadəsi üzrə xidmətlər göstərən Mərkəzin (sertifikat xidmətləri mərkəzinin) qeydiyyatı və akkreditə edilməsi Qaydaları"nın 4.3-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qayda-ları"nın 3.14-cü bəndində "KİV-də" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Tbilisidə Qərbi Azərbaycana Qayıdış müzakirəsi



**Dünən Tbilisidə "Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının dünyada tanıdılmasının əhəmiyyəti" mövzusunda dəyirmi masa keçirilib.**

Toplantı Tərəfsiz (Parlament) Jurnalistlər Birliyinin təşəbbüsü, Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə reallaşan tədbir iştirakçıları M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Qərbi Azərbaycandan deportasiyaya həsr olunmuş sərgi ilə tanış olublar. Muzeyin direktoru, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Leyla Əliyeva Qərbi Azərbaycana Qayıdış Konsepsiyası barədə məlumat verib.

Jurnalist Xətayi Əzizov, Azərbaycan səfirliyinin müşaviri Eldar Bayramov, Parlament (Tərəfsiz) Jurnalistlər Birliyinin nümayəndəsi, Pərvin Məmmədova, Qərbi Azərbaycandan deportasiya olunmuş Tahir Ələkbərov, Gürcüstan parlamentinin sabiq deputatı Ramiz Bəkirov, Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusifov konsepsiyanın gerçəkləşdirilməsi ilə bağlı mülahizələrini söyləyiblər.

Qərbi Azərbaycandan qaçqın Vahirə Astanova Gürcüstanda Qərbi Azərbaycanlılar Birliyinin yaradılması təklifi irəli sürüb.

***XQ***

# Ermənilərin Vyana terror aktlarına həsr olunmuş kitab

**Vyana şəhərində 1975–1984-cü illərdə erməni terrorçuları tərəfindən türk diplomatlarına qarşı törədilmiş terror aktlarına həsr olunmuş "Vyanada terror" adlı kitab işıq üzü görüb.**

Vyana Cinayətlər Muzeyinin direktoru Harald Seyrlin qələmə aldığı kitabın təqdimatı həmin muzeydə keçirilib. Müəllif bildirib ki, alman və türk dillərində tərtib edilmiş kitabda Avstriyanın yaxın keçmişində baş vermiş 3 terror aktı foto və sənədlər əsasında detallı şəkildə əks olunub.

Türkiyənin Avstriyadakı səfiri Ozan Ceyhun 1973–1994-cü illərdə müxtəlif erməni terror təşkilatlarının 42 türk diplomatını qətlə yetirdiyini söyləyib. O, 3 şəhid türk diplomatının xatirəsinin unudulmaması üçün ərsəyə gələn kitaba görə Avstriyadakı türk icması adından müəllifə minnətdarlıq edib.

***XQ***



# Azərbaycan dünyanın dinamik inkişaf edən ölkəsidir

(əvvəli 1-ci səhifədə)

Sözügedən agentliyin hesabatında respublikamızla bağlı diqqətçəkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, sənəddə illik inflyasiya manatın Türkiyə və Rusiya kimi əsas ticarət tərəfdaşlarına nisbətən nominal effektiv bahalaşması və dünya ərzaq qiymətlərinin ucuzlaşması ilə dəstəklənir. Buna baxmayaraq, ərzaq və əsasən xidmətlər üzrə təzyiqlər güclü olaraq qalır. Agentlik isə belə bir şəraitdə illik inflyasiyanın 2023-cü ilin sonuna qədər Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun tavanına (4±2%) yaxınlaşacağını proqnozlaşdırır. Beləliklə, orta inflyasiyanın 2023-cü ildə 10,1 faizə, 2024-cü ildə isə 6 faizə enəcəyi gözlənilir.

Agentliyin hesabatında ölkəmizlə bağlı müsbət proqnozları şərtləndirən amilləri nəzərdən keçirərkən, ilk növbədə, bəzi göstəriciləri xatırlatmaq istərdik. Belə ki, son 20 ildə respublika iqtisadiyyatı 3 dəfədən çox artıb, valyuta ehtiyatları 65 milyard dollara çatıb, ümumi daxili məhsulun (ÜDM) nominal həcmi 22 dəfə yüksələrək 133,8 milyard manat olub, əhalinin gəlirləri isə 13,7 dəfə çoxalıb.

Ümumiyyətlə, bu dövr ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf yolu keçən iqtisadiyyatı kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Ölkəmizin maliyyə imkanları tarixi maksimuma çatlıb. Respublikamız Cənubi Qafqazın və ətrafın iqtisadi coğrafiyasını dəyişdirməyə qadir möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb.

Ötən illər ərzində iqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Neft gəlirləri uğurla sosial-iqtisadi inkişafa transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşdirilib. Sürətli artım sayəsində əhalinin həyat səviyyəsi əhəmiyyətli şəkildə yüksəlib, yoxsulluq səviyyəsi xeyli azalıb.




Bu müddətdə regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan özünü etibarlı tərəfdaş kimi təsdiq edə bilib, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri qovşağına çevrilib. Beləliklə, Prezident İlham Əliyevin qarşıya qoyduğu müasir dövlət, dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

"Fitch Ratings" kimi nüfuzlu beynəlxalq agentliyin ölkəmizin xarici valyutada uzunmüddətli emitent defolt reytinqini müsbət proqnozla "BB+" səviyyəsində təsdiqləməsi haqqında danışarkən isə xatırlatmaq lazımdır ki, reytinq ölkəmizin çox güclü xarici balansı, müvafiq ölkələr qrupunda ən aşağı dövlət borcu və suveren fond aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənib.

Azərbaycanın xarici dövlət borcunun davamlı olaraq azaldılması dövlətin beynəlxalq maliyyə institutlarından asılılığının minimuma enməsinə gətirib çıxarıb. Xarici borc əsasən dövlət istiqraz emissiyası vasitəsilə aşağı salınıb.

Respublikamızda istiqraz bazarı son illər sürətlə inkişaf etməkdədir və dövlətin bazarı stimullaşdırmaq üçün atdığı əhəmiyyətli addımlar əhalinin vəsaitlərini bu yöndə investisiya etməsinə imkan yaradır. Xarici dövlət borcunun Maliyyə Nazirliyinin istiqrazları vasitəsilə azaldılması da dövlət istiqrazları bazarına müsbət təsir göstərir. Fiziki şəxslərin bank depozitlərinin faiz gəlirlərinin vergiyə cəlb olunması isə əmanətçiləri bu bazara yatırım etməyə həvəsləndirir. Çünki dövlət istiqrazlarının faiz gəlirləri vergidən azaddır. Bank əmanətinə alternativ maliyyə aləti olan istiqrazların bir çox üstün konturları da var. Bank əmanəti vaxtından əvvəl götürülən zaman yığılan faizlər əmanətçiyə verilmir, lakin dövlət istiqrazlarına vəsaitini yerləşdirən əmanətçilər pullarını istədikləri vaxt yığılan vəsaitlə birlikdə geri götürə bilirlər.

Son illər ölkəmizin daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb. Bundan sonra da həmin sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib.

Xatırladaq ki, sözügedən strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

***V.BAYRAMOV***
***XQ***

## Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



"Fitch Ratings" beynəlxalq reytinq agentliyinin hesabatında öz əksini tapan bir məqama toxunmaq istərdim. Bu, inflyasiya bağlı proqnozun verilməsi ilə bağlıdır. Belə ki, hesabatda ölkəmizdə illik inflyasiyanın 2023-cü ilin sonuna qədər Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun tavanına (4±2%) yaxınlaşacağının proqnozlaşdırıldığı, orta inflyasiyanın 2023-cü ildə 10,1 faizə, 2024-cü ildə isə 6 faizə enəcəyi gözlənilir. Bu, əlbəttə, təsadüfi rəqəmlər deyil, ilk növbədə, ölkədə bu istiqamətdə həyata keçirilən islahatların nəticələrinə və hazırkı inflyasiya göstəricisinə əsaslanır.

Yeri gəlmişkən, son illər respublikada mövcud inflyasiya xarici təsirlərdən qaynaqlanıb. Qobal maliyyə sistemində sabitliyin pozulması, bir sıra inkişaf etmiş ölkələrdə resessiya təhlükəsinin mövcudluğu və geosiyasi gərginlik müxtəlif kanallarla ölkəmizin inflyasiya proseslərinə təsir göstərib. Bununla belə son aylarda xarici inflyasiya təzyiqlərinin zəifləməsi, eləcə də ötən ildən bəri qəbul edilən pul siyasəti və makroprudensial siyasət qərarlarının təsiri ilin qalan dövründə inflyasiya proqnozunun azaldılmasına şərait yaradıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-avqust aylarında istehlak qiymətləri indeksi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 111,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 113,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 110,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,2 faiz təşkil edib. Bu ilin avqust ayında isə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,6 faiz, ötən ilin avqust ayına nisbətən isə 108 faiz olub.

Beləliklə, inflyasiyanın tədricən aşağı enməsi, tərəfdaş ölkələr üzrə orta çəkili inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin aşağı düşməsi, beynəlxalq yükdaşıma xərclərinin pandemiyadan əvvəlki səviyyədə qeydə alınması, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, eləcə də pul siyasəti qərarları ilə illik inflyasiya tempinin azalması müşahidə olunur.



# Öz dərmanlarımız çoxaldıqca qiymətlər də enəcək

## *Hələlik isə əczaçılıq məhsullarının idxalı azalmır*

(əvvəli 1-ci səhifədə)

Dərmanların əlçatan olmaması isə xəstə insanlar üçün, ümumilikdə, ölkənin səhiyyə sistemi üçün əlavə yükə çevrilib. Üstəlik, dərman vasitələrinə tələbat həmişə yüksək olduğundan bu sahədə mövcud qiymət sərbəstliyi ucuzlaşmanı təmin etmək əvəzinə, bahalaşmaya rəvac verib. Ekspertlər bildirirlər ki, əczaçılıq sahəsi öz spesifikliyi ilə seçildiyindən burada vətəndaşın seçim imkanı azdır. Çünki o, digər məhsullardan fərqli olaraq əczaçılıq məhsullarını öz istəyi və seçimi əsasında almır, həkimin təyin etdiyi dərman vasitələrini almağa məcburdur.

Bu sahədə həyata keçirilən sərbəst qiymət siyasətini fürsət bilən bəzi işbazlar isə ölkəyə gətirdikləri dərman vasitələrini və digər əczaçılıq mallarını istədikləri qiymətə təklif edirlər. Bəzi hallarda isə, süni qıtlıq yaratmaqla dərmanların bahalaşmasına nail olurlar. Belə neqativ halların qarşısını almaq isə müəyyən inzibati metodlara əl atmağı zəruri edir. Ekspertlər bildirirlər ki, hətta bir sıra inkişaf etmiş, liberal iqtisadiyyata malik Avropa ölkələrində də qiymətləri bu və digər formada dövlət tənzimləyir. Bu halda dərman istehsalçıları da həmin ölkələr üzrə daha münasib qiymət siyasəti həyata keçirirlər.

Ekspertlər onu da qeyd edirlər ki, ötən illər ərzində ölkəmizdə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi ilə bağlı həyata keçirilən dövlət siyasəti nəticəsində bu sahədə şəffaflıq təmin edilib, ictimai və dövlət nəzarəti güclənib. Məsələnin həm sosial, həm də iqtisadi əhəmiyyəti nəzərə alınaraq dərman vasitələri bazarında tənzimləmədən əvvəl müşahidə edilən xaotik vəziyyət aradan qaldırılıb.

İndən belə ölkəmizdə, həm də dərman vasitələrini təsdiq olunmuş qiymətlərdən daha aşağı qiymətə almaq mümkün olacaq. Buna Tarif (qiymət) Şurasının dərman vasitələrinin qiymətlərinin yuxarı həddini təsdiq etməsi ilə bağlı yeni qərarı imkan yaradacaq.

Məlum olduğu kimi, ölkə Prezidentinin 2023-cü il 14 iyul tarixli fərmanı ilə "Dərman vasitələri haqqında" Qanuna edilmiş dəyişikliklərlə 13 dövlət qurumunun təmsil olunduğu Tarif (qiymət) Şurasına dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddinin təsdiq edilməsi tapşırılıb.

Dövlət başçısının tapşırığından irəli gələn məsələlərin icrası məqsədilə 2023-cü il sentyabrın 15-də Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. İclasda indiyədək təsdiq edilmiş bütün dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı hədd olaraq tətbiq edilməsi barədə qərar qəbul edilib. "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 15 sentyabr 2023-cü il tarixində qəbul etdiyi yeni qərarla "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə" 31 iyul 2023-cü il tarixli qərarında bir sıra dəyişikliklər olunub. Dəyişikliklərə əsasən, əvvəlki qərarda qeyd olunmuş "qiymətləri" sözü "qiymətlərinin yuxarı həddi" sözləri ilə əvəz edilib.

Xatırladaq ki, yeni qərar qəbul olunanadək dərman vasitələri üçün vahid qiymət tətbiq olunurdu və bütün apteklərdə dərman vasitələri həmin qiymətə satılırdı. Artıq dərman vasitələrinin vahid qiymətləri yuxarı hədd olaraq təsdiq edilib. Yəni dərmanlar təsdiq olunmuş qiymətlərdən ucuz satıla bilər.

Tarif (qiymət) Şurasının Katibliyindən bildirilib ki, Azərbaycanda əhalinin sosial rifahının yaxşılaşdırılması və əczaçılıq sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir. Bu məqsədə nail olmaq üçün yeni istehsal müəssisələri yaradılır, qanunvericilik təkmilləşdirilir. Qəbul edilmiş qərar dərman vasitələrinə əlçatanlığın yaxşılaşdırılmasına, bu sahədə daha əlverişli rəqabət mühitinin yaradılmasına və əhali tərəfindən dərman vasitələrinin tənzimlənmiş qiymətlərdən aşağı qiymətə alınmasına imkan verəcəkdir. Xatırladaq ki, yeni tariflər 15 sentyabr 2023-cü il tarixindən qüvvəyə minir.

Azərbaycanda dərman vasitələrinin ucuzlaşdırılmasına səbəb ola biləcək amillərdən biri də bu sahədə idxalın artmasıdır. Belə ki, 2023-cü ilin yanvar-avqust ayları ərzində ölkəmiz 401 milyon 483 min dollar dəyərində 20 min 232 ton əczaçılıq məhsulları idxal edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.

Komitənin məlumatına görə, bu, həcm baxımından 2022-ci ilin 8 ayı ilə müqayisədə 1166 ton və ya 6,1 faiz çoxdur. Məbləğ baxımından isə illik nisbətdə 30 milyon 669 min dollar və ya 7,1 faiz azdır. Xatırladaq ki, ötən ilin yanvar-avqust aylarında Azərbaycan xaricdən 432 milyon 152 min dollar dəyərində 19 min 656 ton əczaçılıq məhsulları idxal edib. Yeri gəlmişkən, cari ilin yanvar-avqust aylarında əczaçılıq məhsulları idxalı Azərbaycanın ümumi idxalının 3,6 faizini təşkil edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 8 ayda investisiya qoyuluşu 11 milyard manata çatıb

**2023-cü ilin yanvar-avqust aylarında ölkəmizdə əsas kapitala 10 milyard 864,8 milyon manat məbləğində vəsait yönəldilib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,4 faiz çoxdur. Bu barədə XQ-yə Dövlət Statistika Komitəsindən məlumat verilib.**



Komitənin məlumatına əsasən, hesabat dövründə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 12,2 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 17,1 faiz artıb. İstifadə olunmuş vəsaitin 6 milyard 199,6 milyon manatı və ya 57,1 faizi məhsul istehsalı sahələrinə, 4 milyard 116,1 milyon manatı (37,9 faizi) xidmət sahələrinə, 549,1 milyon manatı (5 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş vəsaitlərin 8 milyard 336,5 milyon manatını və ya 76,7 faizini daxili vəsaitlər təşkil edib. Bunun da 7 milyard 928,4 milyon manatı və ya 73 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Qeyd edək ki, əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 46,1 faiz, büdcə vəsaitləri 39,3 faiz, əhalinin şəxsi vəsaitləri 6,5 faiz, bank kreditləri 2,8 faiz, sair vəsaitlər isə 5,3 faiz təşkil edib.

***XQ***




# Neft-qaz sektorunda ÜDM ikiqat artıb

**Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, neft-qaz sektorunda ümumi daxili məhsul (ÜDM) cari ilin yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 98,9 faiz artaraq 31 milyard 253 milyon manat olub.**

İqtisadiyyatın neft-qaz sektorunda isə əlavə dəyər 1,1 faiz azalıb.

***XQ***

# Vergi daxilolmaları 23 faiz çoxalıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bu ilin yanvar-avqust aylarında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcminin 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz artaraq 12 milyard 80,4 milyon manat təşkil etdiyini bildirib.**



Nazir, həmçinin həmin müddətdə qeyri neft-qaz sektorundan vergi daxilolmalarının ötən ilin eyni dövrü ilə müqayisədə 20,5 faiz artaraq 6 milyard 865,6 milyon manat olduğunu da qeyd edib.

***XQ***

# Bölgələrə yatırım 9 faizədək yüksəlib

## I yarımildə bu rəqəm 3 milyard manatı ötüb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında cari ilin yanvar-iyun aylarında Azərbaycan regionlarında əsas kapitala investisiyaların 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz artması ilə bağlı məlumat verib. Nazir, həmçinin regionlarda əsas kapitala yatırılan investisiyaların həcminin 3,1 milyard manat təşkil etdiyini bildirib.**



Bu göstərici son illər regionların inkişafında mühüm dəyişikliklərin baş verdiyindən xəbər verir. Əlbəttə, belə bir dinamika, ilk növbədə, Prezident İlham Əliyevin müdrik siyasətinin, imzaladığı regional dövlət proqramlarının məntiqi nəticəsidir. Respublikamızın bütün şəhər və rayonlarının sürətlə müasirləşməsi, abadlıq-quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi, böyük infrastruktur layihələrinin gerçəkləşdirilməsi, yeni iş yerlərinin yaradılması, vətəndaşların sosial rifahının yüksəldilməsi də məhz regional strategiyanın uğurlu icrasından qaynaqlanır.

Əvvəlki dövrlərdə olduğu kimi, "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi dövlətimizin başçısının ciddi nəzarəti altındadır. Ölkə rəhbəri gərgin iş rejiminə baxmayaraq, regionlara mütəmadi səfərlər edir, görülən işlərlə yerində tanış olur, layihələrin daha sürətlə reallaşması üçün tapşırıq və tövsiyələrini bildirir.

Ölkə başçısı təkcə ötən il rayonlara səfər çərçivəsində 160-dan çox obyektin– istehsal müəssisələri, yollar, elektrik təchizatı obyektləri, su təchizatı layihələri, səhiyyə və təhsil müəssisələrinin açılış mərasimlərində iştirak edib, müvafiq məsələlərlə bağlı tapşırıq və tövsiyələrini verib.

Bölgələrə belə qayğı və diqqətlə yanaşılması sayəsində iqtisadi fəallıq artıb, bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilib. Bunun gerçəkləşməsində isə iqtisadi suverenliyin təmin olunması, dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən fəal makroiqtisadi siyasətin yürüdülməsi, insan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi, biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsinin artırılması və düşməndən təmizlənən ərazilərin nəhəng potensialının iqtisadi sistemə inteqrasiyası, habelə həmin ərazilərə əhalinin qayıdışının sürətləndirilməsi kimi amillər xüsusi rol oynayıb.

Təbii ki, regionların inkişafına iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın səmərəli şaxələnməsi, ixrac potensialının tam reallaşdırılması üçün qeyri-neft iqtisadiyyatının güclənməsi məsələləri də önəmli təsir göstərib. Nəticədə ölkə üzrə istehsal edilən məhsulların 27 faizə yaxın hissəsi regionların payına düşüb.

Regionların inkişafını daha da sürətləndirmək məqsədilə son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.

Aqrar sektorun inkişafında mühüm önəm daşıyan aqroparkların və müasir iri fermer təsərrüfatlarının yaradılması istiqamətində layihələrə də xüsusi əhəmiyyət verilir. Dövlət başçısının müvafiq tapşırıqlarına uyğun olaraq, hazırda respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark üzrə işlər davam etdirilir. Sözügedən aqroparklardan 44-ü artıq fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə və ya tikinti işləri aparılır.

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV, iqtisadçı-ekspert**

Azərbaycanda 2004-cü ildən indiyədək uğurla reallaşdırılan regionların sosial–iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına müsbət təsir göstərib, bununla da ölkəmizin strateji inkişaf hədəflərinə nail olunmasına əhəmiyyətli töhfə verib.

Kənd təsərrüfatı, emal sənayesi respublikamızda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir. Aqrar sektorun subsidiyalaşdırılması və vergi azadolmaları, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyaların və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətlənməsində mühüm rol oynayıb.

Dövlət proqramı çərçivəsində regionlarda sənayeləşmə siyasətinə uyğun olaraq sənaye parkları və məhəllələrinin fəaliyyətinin təşkili və genişləndirilməsi istiqamətində işlər indiyədək uğurla davam etdirilib. 7 sənaye parkının–Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz vadisi İqtisadi Zonası" sənaye parklarının və 5 sənaye məhəlləsinin– Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələrinin səmərəli fəaliyyəti təmin olunub. Həmin kompleks müəssisələrdə sahibkarlığın müasir dünya təcrübəsi əsasında inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb. Sənaye parkları və məhəllələrinin rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri davamlı şəkildə həyata keçirilib. Respublikada real sektora özəl investisiyaların cəlbini gücləndirmək məqsədilə dövlətimizin başçısının 2016-cı il 18 yanvar tarixli fərmanı ilə təsdiqlənən "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na əsasən, həmin sənədinin verilməsi davam etdirilib. Təkcə ötən il ərzində 49 sahibkarlıq subyektinə 50 investisiya təşviqi sənədi təqdim olunub. Bunun nəticəsində yerli istehsala 665 milyon manat investisiyanın yatırılması və 2323 yeni iş yerinin açılması nəzərdə tutulub.

İnvestisiya təşviqi sənədini alan hüquqi şəxslərə və fərdi sahibkarlara 77 milyon dollar dəyərində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün 630 təsdiqedici sənəd verilib və sahibkarlar tərəfindən idxalda tətbiq olunan vergi və rüsumlardan 18,54 milyon ABŞ dolları məbləğində güzəşt əldə edilib.

*Vaqif BAYRAMOV*
*XQ*

# Naxçıvan xəbərləri

## 1700-dən çox fermerə subsidiya verilib

**Aqrar Subsidiya Şurasının (ASŞ) qərarı ilə muxtar respublikada 1702 kənd təsərrüfatı məhsulları istehsalçısına yazlıq əkin üçün subsidiya verilməsinə başlanılıb.**




Bununla bağlı ASŞ-nin iclasında ötən dövrdə yaz əkinləri üçün subsidiya almaq məqsədilə təqdim olunan sənədlərin araşdırılması zamanı bir sıra nöqsanlara yol verildiyi də diqqətə çatdırılıb. Lakin keçid dövrü nəzərə alınaraq istehsalçıların subsidiyadan məhrum edilməməsi zəruri sayılıb.

Bildirilib ki, artıq növbəti mövsümdə sənədləri düzgün formalaşdırılmayan, torpaqları analiz edilməyən təsərrüfat sahiblərinə subsidiyalar verilməyəcək. Subsidiyalarla bağlı sənədləşdirmə məsələlərində bundan sonra rayon, şəhər icra hakimiyyəti orqanları ilə birlikdə Naxçıvan, Şərur və Culfa Regional Dövlət Aqrar İnkişaf mərkəzləri də müvafiq tənzimləmələr aparacaq, istehsalçılara bu istiqamətdə dəstək göstəriləcək.

İclasda muxtar respublika üzrə 1702 nəfər kənd təsərrüfatı mahsulları istehsalçısına yaz əkinləri üçün, ümumilikdə, 93 min 927 manat məbləğində subsidiya verilməsi müəyyənləşdirilib.

## Vergi ödəyicilərinin sayı 2,1 dəfə artıb



**Bu il sentyabr ayının 1-nə Naxçıvan Muxtar Respublikasında 4 min yeni vergi ödəyicisi qeydiyyata alınıb. Bunların 89,4 faizi fiziki, 10,6 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**

Dövlət Vergi Xidmətinin məlumatına görə, ötən ilin eyni dövrü ilə müqayisədə qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 2,1 dəfə, o cümlədən fiziki şəxslərin sayı 1,9 dəfə, hüquqi şəxslərin sayı isə 33 dəfə artıb.

Yanvar-avqust aylarında kommersiya qurumlarının 63 faizi elektron qaydada, 37 faizi isə kağız daşıyıcıları vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

## Türkiyəli iş adamları ilə işgüzar görüş

**Naxçıvan şəhərində türkiyəli iş adamları ilə növbəti işgüzar görüş keçirilib. Görüşdə muxtar respublikanın iqtisadiyyat, kənd təsərrüfatı, turizm sahələri ilə bağlı ətraflı məlumat verilib, qardaş ölkə sahibkarlar ilə əlaqələrin gücləndirilməsi məsələləri müzakirə edilib.**



Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev bildirib ki, tarixi ənənələrə sadiq qalan Azərbaycan və Türkiyə arasında bu gün həyatın bütün sahələrində, o cümlədən iqtisadiyyat, turizm, aqrar istiqamətlərdə mehriban dostuq, qardaşlıq prinsiplərinə əsaslanan əlaqələr inkişaf edir. Muxtar respublikası da ticarətdə, məhsul idxal-ixracında mərkəz rolunu oynamaqla, bu əlaqələrin güclənməsinə töhfələr verir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verən nazir deyib ki, proqramın əsas qayələrindən biri də sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq, azad iqtisadi zona yaratmaqla Naxçıvanı əsas sərmayə mərkəzinə çevirməkdir.

*XQ*

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov "Avropa və Mərkəzi Asiyada qida standartlarının təkmilləşdirilməsi və kodeks alimentarius komissiyasının fəaliyyətində iştirakın genişləndirilməsi" mövzusunda keçirilən regional müzakirədəki çıxışında bildirib ki, hər bir taxıl dənəsinin, hər kiloqram çörəyin qiymətli olduğunu, zəhmət və kapital qoyuluşu hesabına başa gəldiyini nəzərə alaraq, təhlükəli qida istehsal edən sahibkarın son nəticədə hər birimizə zərər vurduğunu görərik.**

# Ziyanlı olmasın adi bir dən də...

## Təhlükəli qida istehsal edən sahibkar hər birimizə zərər vurur

Nazirin sözlərinə görə, çıxdaş edilərək məhv edilən bu cür ərzaqlar dövlətin resurslarının israfı deməkdir: "Bu səbəbdən ölkələrin qida təhlükəsizliyi sahəsində qəbul etdiyi qanunvericilik aktlarının ciddi tətbiqi həm də ərzaq təhlükəsizliyində böyük rol oynayır. Kənd Təsərrüfatı Nazirliyi ərzaq təhlükəsizliyi sahəsində "dəyər zənciri" prinsipini diqqətdə saxlamaqla insan qidası üçün tam təhlükəsiz ərzaq məhsullarının "tarladan süfrəyə" çatdırılması layihəsində aidiyyatı qurumlarla birgə iştirak edir".



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük müharibədə əldə etdiyi parlaq qələbədən sonra düşməndən təmizlənən torpaqlarımızda yenidənqurma işlərinə başlanılıb. Bu istiqamətdə kənd təsərrüfatına yararlı torpaq sahələri nəzarətə götürülərək ekoloji təmiz və epizootoloji sağlam zonalar yaradılmaqla yüksək keyfiyyətli, təhlükəsiz kənd təsərrüfatı məhsullarının istehsalına başlanılıb.

M. Məmmədov bildirib ki, bitki və heyvan sağlamlığı da Kənd Təsərrüfatı Nazirliyinin daim diqqət mərkəzindədir: "Bitkilər və heyvanlar üçün xüsusi təhlükə törədən zərərli orqanizmlərin məhv edilməsi, o cümlədən profilaktik tədbirlər mütəmadi olaraq həyata keçirilir. Ərzaq və qida təhlükəsizliyi sahəsində beynəlxalq təcrübələr nəzərə alınaraq islahatlar aparılır, sahibkarlara, fermerlərə dövlət dəstəyi göstərilir. Məşğul əhalinin işlə təmin edilməsi, ərzaq məhsullarının qiymətlərinin əlçatan olması və yoxsulluğun aradan qaldırılması daim dövlətimizin diqqət mərkəzində saxlanılır.

Nazir əlavə edib ki, Azərbaycan 2011-ci ildən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı və Ümumdünya Səhiyyə təşkilatları tərəfindən "Birgə Qida Standartları Proqramı" çərçivəsində təsis edilən Kodeks Alimentarius Komissiyasına üzvdür. M.Məmmədov sözlərinə görə, bu komissiyanın beynəlxalq qida standartları, təlimatları və tətbiqetmə qaydaları beynəlxalq qida ticarətinin təhlükəsizliyinə kömək edir, insanların yüksək keyfiyyətli qida ilə təminatında öz töhfəsini verir.

*XQ*

# Hacıqabulda Aqrar İnnovasiya Festivalı

***Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Hacıqabulda Aqrar İnnovasiya Festivalı keçirilib. Kənd təsərrüfatı təyinatlı məhsul və texnologiyaların sərgiləndiyi festivalda toxum sərgi-satış yarmarkası təşkil edilib.***



Mövsümün 6-cı toxum sərgi-satış yarmarkası Aqrar İnnovasiya Mərkəzi, Aqrar Xidmətlər Agentliyi, Dövlət Toxum Fondu, Azərbaycan Toxumçular Assosasiyasının təşkilatçılığı ilə reallaşıb. Festivalda 30-a yaxın dövlət və özəl toxumçuluq subyektləri iştirak edib. Yarmarkada sertifikatlı toxumun üstünlükləri barədə fermerlər maarifləndirilib.

Festival zamanı "Toxum istehsalı və emalı" mövzusu üzrə toxum istehsalçılarına və fermerlərə təlim keçirilib, onları maraqlandıran suallar ətraflı cavablandırılıb, müvafiq məsləhət və tövsiyələr verilib.

Tədbirdə ölkədə fəaliyyət göstərən və aqrar sektorun müxtəlif sahələri üzrə ixtisaslaşmış 60-a yaxın dövlət və özəl bölməni təmsil edən qurumlar, eləcə də xarici şirkətlər iştirak edib.

Hacıqabuldakı festivalda toxum sərgi-satışı ilə yanaşı, festivalların ənənəsinə uyğun olaraq kənd təsərrüfatı təyinatlı texnikalar, müasir suvarma metod və texnologiyaları, gübrə, pestisid nümunələri və aqrar sahəyə məxsus digər məhsullar sərgilənib. Festivalda ilk dəfə olaraq kənd təsərrüfatı sahəsində istifadə olunan dirəksiz anqarlar və yeni texnikalar nümayiş olunub. Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və təşəbbüsü ilə keçirilmiş bir sıra startap yarışma və müsabiqələrin iştirakçıları öz ixtiralarını nümayiş etdiriblər.

Növbəti toxum sərgi-satış yarmarkasının keçiriləcəyi Aqrar İnnovasiya Festivalı sentyabrın 22-də Sabirabad rayonunda təşkil olunacaq.

*XQ*

# Heydər Əliyev Fondunun Yevlax, Salyan və Qaxda məktəb hədiyyəsi



**Heydər Əliyev Fondu yeni tədris ilinə Yevlax rayonunun Xanabad kəndində 360 şagird yerlik məktəb binasını da istifadəyə verib. Kənddə 1978-ci ildə inşa olunmuş köhnə binanın yenisi ilə əvəz olunması toy-bayrama çevrilib.**

Təhsil ocağı ilə tanışlıq zamanı bildirilib ki, üçmərtəbəli, 4 korpusdan ibarət məktəb binasında 19 sinif otağı, fizika, kimya, biologiya kabinetləri, fənn laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı və açıq idman meydançası var. Zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə təchiz edilən təhsil müəssisəsində müasir istilik və işıqlandırma sistemi də qurulub. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

***

**Heydər Əliyev Fondu Salyan rayonunun Şorsulu kəndində bir əsrə yaxın yaşı olan Namiq İbrahimov adına təhsil ocağı üçün də yeni məktəb binası inşa edib.**

Açılış mərasimində çıxış edənlər qeyd ediblər ki, kənddə yeni təhsil ocağının inşasına ehtiyac yaranmışdı. Yeni məktəbin tikintisini üzərinə götürən Heydər Əliyev Fondunun gördüyü işlər nəticəsində 2023–2024-cü tədris ili üçün 300 şagird yerlik yeni məktəb istifadəyə verilib.

İkimərtəbəli məktəb üç korpusdan ibarətdir. Təhsil müəssisəsində 13 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt, idman zalları və açıq idman meydançası var.

***

**Qax şəhərindəki V.Əliyev adına 3 nömrəli tam orta məktəb 1950-ci ildə inşa olunduğundan istifadəyə yararsız vəziyyətə düşmüşdü.**

Heydər Əliyev Fondunun bu ilin yanvarında yeni məktəbin tikintisi ilə bağlı apardığı işlər artıq yekunlaşıb və təhsil ocağı yeni tədris ilində şagird və müəllimlərin ixtiyarına verilib. Müasir tələblərə cavab verən, hər cür şəraiti olan yeni binanın tikilməsi şagirdlərin, müəllim və valideynlərin böyük sevincinə səbəb olub. Açılış mərasimində çıxış edənlər yeni məktəbin təhsili müasir tələblər əsasında qurmağa imkan yaratdığını vurğulayıblar.

Hər üç məktəbin açılışında Prezident İlham Əliyevə və Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıq ifadə edilib.

*XQ*

# Şəhid qardaşların əkiz qardaş-bacısı



**Allahın möcüzələri saysız-hesabsızdır. Boşuna demirlər ki, sən Allahdan istə, versə nemətdir, verməsə hikmət. Bu günlərdə Yaradanın məsləhəti ilə oğullarını şəhid verən anaya Allahın neməti göndərilib.**

İki oğlunu Vətənə qurban verən Faya Məmmədovanın övladlarını torpağa verəndən sonra gecəsi-gündüzünə qarışır. Həmdəmi göz yaşları, övladlarının şəkilləri olur. Günlərini şəkillərlə söhbət etməklə keçirir, suallarına cavab almır. İki il sonra Faya yenidən ana olmaq arzusunu dilə gətirir, həkimlərə müraciət edir. Bir çox xəstəxanadan ümidsiz qayıdan anaya Bakı Sağlamlıq Mərkəzində ümid çırağı yandırılır. Mərkəzin Reproduktiv Sağlamlıq Mərkəzinin rəhbəri, uzman mama-ginekoloq Dr. Öndər Tulumbacı onların dərdinə əlac tapır. Yenidən ana ola biləcəyi xəbərini verir.

Xatırladaq ki, Vətən müharibəsində Şəmkirin Yeniabad kənd sakini İlham və Faya Məmmədovların ailəsinin övladları Çingiz və Cavid şəhid olaraq şəhidlik zirvəsinə ucalıblar. Azərbaycan Ordusunun giziri olan Çingiz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Çingiz Məmmədov oktyabrın 1-də Madagizin azad edilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapılmayıb. Ata-ana gecə-gündüz Çingizin nəşinin tapılması üçün dualar edib. Nəhayət 2020-ci il dekabrın 18-də şəhidin nəşi tapılıb və dəfn olunub. Ailənin ikinci oğlu Cavid Məmmədov isə Talış kəndinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 28 sentyabr 2020-ci ildə kəndin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Bu gün Şəmkirdə Məmmədovların ailəsində sevinc göz yaşları bir-birinə qarışıb. İtirdikləri iki igidin əvəzi olaraq, Allah onlara bir qız və bir oğlan övladı bəxş edib. Ata-ananın sevinci sonsuzdur. Deyir ki, indiyəcən iki şəhid anası idim. İndi əkizlər anasıyam. Körpələrimizi də Cavid və Çingiz kimi vətənpərvər böyüdəcəyik. Göz yaşların saxlaya bilməyən ana deyir: “Bu əkiz övladlarımız bizə təsəllidir. Hazırkı təkliyimizə, tənhalığımıza təsəllidir. Körpələrə Hüseyn və Zəhra adı vermişik”.

Əkizlərin atası İlham Məmmədov bu körpələri də vətənpərvər böyüdəcəklərini deyir. Bakı Sağlamlıq Mərkəzinə, onların yurdunun boş qalmaması – əkizlərin dünyaya gəlməsi üçün əməyi keçən hər kəsə minnətdarlıq edir.

Günlər aylara, aylar illərə dönəcək. Hüseyn və Zəhra böyüyüb şəhid qardaşlarının qəhrəmanlığı ilə fəxr edəcəklər. Onlar torpağımızın azadlığı uğrunda can verənlərdən ikisinin də onların ailə üzvü olduğunu qürurla söyləyəcəklər. Biləcəklər ki, onların qardaşlarının da yeni tarixin yazılmasında əməyi olub.

Qeyd edək ki, şəhidilik məqamına yüksələndən sonra Azərbaycan Prezidentinin sərəncamlarına əsasən, Cavid Məmmədov “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə”, “Suqovuşanın azad olunmasına görə” və “Laçının azad olunmasına görə”, şəhid Çingiz Məmmədov “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə”, “Cəsur döyüşçü” və “Kəlbəcərin azad olunmasına görə” medallarına layiq görülüblər. Onların hər birinin iki övladı Vətənə əmanət qalıb.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Şüvəlanda təmizlik aksiyası



**Dünən çimərlik mövsümünün yekunlaşması ilə əlaqədar növbəti sahilyanı təmizlik aksiyası təşkil olunub.**

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, “Təmiz Şəhər” ASC, PADI dalğıc mərkəzinin Azərbaycandakı səlahiyyətli nümayəndəsi “Baku scuba”, Bakı Dövlət Universiteti və BMT-nin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Şüvəlan çimərliyində keçirilən aksiyanın əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərdə məişət tullantılarının qalaqlanmasının qarşısını almaq və gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. İlk dəfə olaraq dalğıcların iştirakı ilə Xəzər dənizinin sahilyanı ərazisi ilə yanaşı, sualtı hissəsi də tullantılardan təmizlənib.

"Sahillər təmiz qalsın” şüarı altında keçirilən təmizlik aksiyası zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları çimərlik ərazisindən topladıqları tullantıları Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil veriblər.

Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və yüzlərlə könüllünün iştirakı iləson vaxtlar baxımsız sahilyanı ərazilər tullantılardan təmizlənir və vətəndaşların istifadəsinə verilir.

*XQ*

# YAP nümayəndə heyətinin Çin görüşləri

**Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasına səfər çərçivəsində bir sıra görüşlər keçirib.**



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovun rəhbərlik etdiyi heyət Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsinin departament müdirinin müavini Li Cünfu, şöbə müdirinin müşaviri Cao Şiton, təşkilat şöbəsinin gənc kadrların hazırlanması departamentinin müdir müavini Sie Şenli ilə görüşüb. Görüşlər zamanı Azərbaycan və Çin arasında münasibətlərin inkişafından söhbət açılıb. Vurğulanıb ki, milli maraqları əsas götürən, bərabərhüquqlu tərəfdaşlığa malik iki dost ölkə bir-birini beynəlxalq platformalarda dəstəkləyir.

Qeyd olunub ki, Çin–Azərbaycan münasibətlərinin inkişafı və ÇKP ilə YAP arasındakı əlaqələrin dərinləşdirilməsi dövlət rəhbərlərinin diqqət mərkəzindədir. Eyni zamanda, Cənubi Qafqaz regionundakı proseslər müzakirə olunub və bir daha Çinin Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyi ifadə edilib.

“Partiyanın gənc nümayəndələrinin yetişdirilməsi” mövzusunda aparılan fikir mübadiləsi zamanı Azərbaycanda həyata keçirilən gənclər siyasəti haqqında ətraflı məlumat verilib, gənclərlə işin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğu diqqətə çatdırılıb.

YAP nümayəndə heyəti Çin Kommunist Partiyasının Muzeyini ziyarət edib, nadir tarixi-memarlıq abidələrindən və maddi mədəniyyət nümunələrindən olan Böyük Çin səddində olub.

*XQ*

# 79 nəfər Laçın yolundan sərbəst keçib

**Bu gün Xankəndi–Gorus istiqamətində “Laçın” sərhəd-buraxılış məntəqəsində erməniəsilli şəxslərin növbəti dəfə sərbəst keçidi təmin olunub.**



XQ xəbər verir ki, bu gün məntəqədən növbəti dəfə 79 şəxs Ermənistan istiqamətində sərbəst şəkildə keçid ediblər.

Keçid edənlər arasında erməniəsilli şəxslərlə yanaşı, Rusiya vətəndaşlığını qəbul etmiş, Rusiya pasportu daşıyan insanlar da var. Həmin şəxslərin sənədləri yoxlanılıb və sərbəst hərəkətləri təmin olunub.

Bu, bir daha mülki ermənilərin sərhəd-buraxılış məntəqəsindən keçidində heç bir maneənin, hər hansı çətinliyin olmamasını göstərməklə yanaşı, Ermənistanın Azərbaycan tərəfindən Laçın yolunun blokadada saxlanmasına dair iddialarının yalan və böhtan olduğunu növbəti dəfə sübut edir.

**AYIQ OLAQ!**

# Koronavirus yenidən “qanad açıb”

## Soyuqlama, qrip sizi çaşdırmasın

**Hazırda bir çox ailələrdə uşaqdan böyüyə hamı öskürmə, qızdırma, soyuqlamadan şikayətlənir. Amma bu narahatlığın səbəbini bilmirik. Bu, soyuqdəymədir, ağır qripdir, yoxsa yeni simptomlar altında gizlənmiş koronavirusun özüdür? Belə görünür ki, bu payızın da əsas mövzusu koronavirus olacaq.**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda bir çox ölkələrdə COVID–19-un omikron variantının yeni ştamı “Eris” aşkarlanıb və ən çox yoluxma Çin, ABŞ, Böyük Britaniya, həmçinin Avropa və Asiyada qeydə alınıb.

Təhlükənin ölkəmizə yaxınlaşması saat, gün məsələsidir. Çünki qonşu dövlətlərdə yeni varianta yoluxmalar təsdiqlənib. Avropada geniş yayılan yeni ştam Rusiya və yanaşı ölkələrdə də aşkarlanıb. Ermənistan Səhiyyə Nazirliyinin mətbuat xidməti artıq insanların yeni varianta yoluxmlarını təsdiqləyib. Nazirliyin bildirdiyinə görə, son bir həftə ərzində yoluxma hallarının sayı artıb və son məlumata əsasən, koronavirusa 71 yoluxma faktı qeydə alınıb ki, bu da əvvəlki həftə ilə müqayisədə çoxdur. Ölkədə hazırda mövsümi qrip də aktiv yayılır.

Gediş-gəlişin daha çox olduğu Türkiyədə də COVID–19-un yeni variantı – “Eris” (EG.5.1) aşkarlanıb. Bu barədə səhiyyə naziri Fəxrəddin Qoca məlumat verib. Onun sözlərinə görə, “Eris” variantı Referans laboratoriyalarında aparılan müayinələr zamanı 9 nəfərdə tapılıb. Nazir onu da qeyd edib ki, nəticələri pozitiv olanlar xarici ölkələrdən gələnlər və eyni əyalətlərdən olan şəxslərdir.

Mütəxəssislər hazırda ölkəmizdə yayılan xəstəliyin yeni ştam olmadığını, dominant virusun qrip olduğunu bildirirlər. Poliklinikalara müraciətlərin də son həftələrdə say artımını bildirən həkimlər özünümüdafiə tədbirlərindən istifadə etməyi, insanların çox toplaşdığı yerlərdən mümkün qədər uzaq qalmağı tövsiyə edirlər. Bildirirlər ki, qrip, soyuqdəymə və koronavirusun inkubasiya (xəstəliyin yoluxduğu andan ilk əlamətləri görünənə qədər olan müddət) dövrü, müddəti, simptomları fərqlidir. Hər xəstəliyin də özünün yanaşması var.

Bu barədə məlumat verən Binəqədi rayonundakı 27 saylı şəhər poliklinikasının həkimi, terapevt Aygün Kərimova hər 3 xəstəliyi fərqləndirməyin yolunu və klassik simptomlarını açıqlayıb:

– Arzu edərdik ki, kimsə xəstələnib yatağa düşməsin. Amma ehtiyatsız davranmaq və qorunmamaq, təəssüf ki, yoluxma ilə nəticələnir. Xəstəlik əlamətlərindən hər hansı birini özündə hiss edən şəxs mütləq həkimə müraciət etməli, müalicəyə tez başlamalıdır ki, sonradan ağırlaşma, fəsad olmasın. Bu əlamətlər hansılardır?



Soyuqdəymə olan zaman öncə burun axması başlayır. Öskürək, boğaz ağrısı müşahidə olunur. Nadir halda hərarət 38 dərəcəyə çatır. Xəstəliyin gizli– inkubasion dövrü fərdi olaraq müxtəlif, 2–3 gündən 5-7 günə qədərdir. Həmin müddət keçdikdən sonra xəstəlik özünü büruzə verir və 1 həftə ərzində davam edir. Vaxtında müalicə alanda ağırlaşma olmur.

Koronavirusun simptomları isə çoxdur. Bunlara bütün bədəndə, əzələlərdə ağrıların başlaması, baş ağrısı, ümumi halsızlıq, titrətmə daxildir. Bundan başqa, fərdi olaraq bəzilərində mədə-bağırsaq pozulması, ürəkbulanma, dəridə qaşınma, bədən temperaturunun 37,5 dərəcə olması, daha sonra öskürək, tənəffüsdə problem başlayır. Xəstəliyin inkubasion dövrü 4–7 gündür. Sürətlə başlayır, getdikcə ağırlaşır, 10 günə qədər davam edə bilər. Orta və yüngül forma 10 günə keçsə də, ağır forma xəstəliyin 7-ci günündən daha da şiddətlənir.

Qripin klassik simptomları isə belədir: qəflətən başlayır, titrəmə, bədən ağrıları ilə davam edir və quru öskürək başlayır. Ümumi halsızlıq, burun, göz sulanması, qızdırma və iştahsızlıq müşahidə edilir. Xəstəliyin davam etmə müddəti 5–7 gündür. Ağırlaşma 3–5 gündən sonra başlaya bilər. Qrip də yoluxucu xəstəliklərə aid olduğundan uşaqları və yaşlıları qorumaq lazımdır.

Həkim sonda bildirdi ki, havaların belə keçməsi yoluxmalara şərait yaradır. Yeni dərs ilinin başlanması da insanların bir yerə toplaşmasını, nəqliyyatda sıxlığı şərtləndirir. Buna görə klassik qorunma vasitələrindən istifadə etməklə hər kəs özünü xəstəliyə yoluxmaqdan qoruya bilər. Bu vasitələr isə dəyişməyib: maska, məsafə, dezinfeksiya!

*Z. HÜSEYNOVA*
*XQ*

Xamis Muradov – 80

# Bədii və sənədli filmlər rejissoru





**Qax rayonunun S.Vurğun adına Mədəniyyət Mərkəzinə toplaşanlar görkəmli kinorejissor və ssenarist Xamis Muradovun şərəfli ömür və sənət yoluna nəzər salıb və yubilyara ən xoş arzularını bildiriblər.**

Mədəniyyət işçilərinin, ziyalıların, həmçinin görkəmli kinorejissorun ailə üzvlərinin iştirak etdikləri yubiley gecəsini RİH başçısı Musa Şəkiliyev açaraq Xamis Muradova təbriklərini çatdırıb. Qeyd olunub ki, Azərbaycanın kino mədəniyyəti tarixində özünəməxsus yeri olan kinorejissor Xamis Muradovun yubileyinin onun ata-baba yurdu Qaxda keçirilməsi şəhərin mədəni həyatı üçün əlamətdar hadisədir. Xamis Muradov Azərbaycan kinosunun "qızıl fondu"na daxil olan filmləri ilə mədəniyyət xəzinəmizi zənginləşdirib.

O, 1943-cü il sentyabrın 15-də Qax rayonunun Qaxmuğal kəndində anadan olub. M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Rejissorluq fakültəsində təhsil alıb. 1966-cı ildən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında əmək fəaliyyətinə başlayıb. Görkəmli kinorejissorlar Şamil Mahmudbəyovun quruluş verdiyi "Torpaq. Dəniz. Od. Səma" (1967) və Muxtar Dadaşovun çəkdiyi "Qanun naminə" (1968) filmlərində rejissor assistenti kimi çalışıb. O, Ş.Mahmudbəyovun 1969-cu ildə lentə aldığı "Şərikli çörək" filmində də 2-ci rejissor olub.

Sonrakı 3 ildə Moskvada "Ali rejissorlar və ssenaristlər kursu"nda təhsilini davam etdirib. Bakıya qayıtdıqdan sonra "Nəsimi" (1971) qısametrajlı tarixi-bioqrafik sənədli filmi ilə rejissor debütünü edib. Bu ekran əsərindən sonra sənədli kino istiqamətinə yönələn rejissor "Azərbaycanfilm"də tanınmış ədəbiyyat və mədəniyyət xadimlərimiz haqqında 50-dən artıq maraqlı film lentə alıb.

Rejissorun "Aşıq Ələsgər", "Daşkəsən", "Həmid Sultanov", "Bahar günəşi", "Qarabağ bülbülləri", "Şənlik bizə yaraşır", "Dünyaya insan gəlir", "Üzeyir Hacıbəyov", "Bakının işıqları", "Natəvan", "Abşeron rəngləri" və digər koloritli üslub və priyomlarla lentə alındığı filmlər görkəmli şəxsiyyətlərimizin tanıdılmasında, yeni nəsillərin tərbiyəsində, vətəndaşlıq məsuliyyətinin artmasında mühüm rol oynayıb. Müəllifin "Əks-səda" və "Balaban" filmləri Dövlət mükafatına, "9 dəqiqə" filmi isə "Humay" və "Qızıl çıraq" mükafatlarına layiq görülüb.

Xamis Muradov, eyni zamanda, 20-yə yaxın sənədli filmin ssenari müəllifi, 10-dək bədii ekran işinin prodüseri kimi çalışıb. "Ovsunçu", "Yalan", "Biz qayıdacağıq!", "Günaydın, mələyim!", "Əlavə təsir", "Tərsinə çevrilən dünya" və s. bu qəbildəndir.

Rejissor 1988–2001-ci illərdə "Salnamə" sənədli filmlər studiyasına rəhbərlik edib. Daha sonra 10 il "Azərbaycanfilm" kinostudiyasının direktoru olub. Hüzn və qürur salnaməsinin ekrana gətirilməsində fəal iştirak edib. 1990-cı ildə Tofiq Məmmədov, Ramiz Əliyev və Rövşən Almuradlı ilə birgə yaratdığı "Azadlığa gedən yollar" tammetrajlı, eləcə də "Şəhidlər və qazilər" qısametrajlı sənədli filmləri buna misal ola bilər. Bakıda 1990-cı ilin 20 yanvarında sovet ordusu əsgərləri tərəfindən güllələnən edilmiş şəhər sakinlərinin şəhid olmaları və əlil qalmalarının təsvir edildiyi 2-ci film məhz Xamis Muradovun ssenarisi əsasında ekranlaşdırılıb. "Şəhidlik zirvəsi" qısametrajlı sənədli filmində Azərbaycan ərazilərinin Rusiya ilə İran arasında bölüşdürüldüyü 1828-ci ildən müasir dövrədək Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələr əksini tapıb. Bu film Xamis Muradovun Eldar Quliyev və Oqtay Mirqasımovla müştərək ssenarisi əsasında çəkilib.

Ölkə rəhbərliyinin sənət adamlarına göstərdiyi diqqətdən Xamis Muradov da kənar qalmayıb, Azərbaycan kinosunun inkişafında xidmətlərinə görə 2000-ci ildə "Əməkdar incəsənət xadimi", 2005-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 2012-ci ildən isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Tədbirdə çıxış edən "Xalq qəzeti"nin bölgə müxbiri İlqar Həsənov Xamis Muradovun Azərbaycan kinosu tarixində önəmli mövqeyindən söz açaraq onun sənətkarlıq xüsusiyyətlərindən, insan kimi sadəliyindən, yüksək mədəniyyətindən bəhs edib.

Yubiley gecəsində, həmçinin Xamis Muradovun sənət dostlarının yubilyara təbrik videomüraciətləri təqdim olunub. Ardınca Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən İ.Dağıstanlı adına Xalq teatrının aktyorları bədii proqramla çıxış ediblər.

Sonda Xamis Muradov çıxış edərək yaradıcılığına göstərilən yüksək diqqətə görə rayon rəhbərliyinə, həmçinin tədbir iştirakçılarına öz minnətdarlığını bildirib.

**İ.MUSAOĞLU**
**XQ**

Azərbaycan Milli Teatrı – 150

# Çağdaş səhnə "Qarabağnamə"si

*Bu tamaşa Milli Dram Teatrının vizit kartına çevrilib*

**Milli səhnə kollektivləri yay tətilindən sonra pərdələrini yenidən açır. Akademik Milli Dram Teatrı 150-ci mövsümə, son illərin ənənəsinə uyğun olaraq, Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırladığı "Qarabağnamə" tamaşası ilə gəldi.**

Mövsümün açılışında milli səhnəmizin bayraqdarı olan sənət ocağının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə tamaşaçıları yeni repertuar və kollektivin yaradıcılıq axtarışları barədə bilgiləndirdi. O bildirdi ki, "Qarabağnamə" tamaşası bu mövsümdə yeni quruluşda təqdim olunur. İlin sonuna qədər isə "Dantenin yubileyi", "Sənsiz" və "Əsrə bərabər gün" tamaşalarının premyerası olacaq.




Sonra pərdələr açıldı, 150 il əvvəl böyük maarifçi-demokrat Həsən bəy Zərdabinin öz yetirmələri ilə bina etdiyi milli teatrımız yeni mövsümə günümüz üçün xüsusi aktuallığı ilə seçilən mövzuda hazırladığı tamaşanın nümayişi ilə başladı. 2 əsr əvvəl Qarabağ xanlığının timsalında milli dövlətçiliyimizin bəlalı tarixçəsindən bəhs edən pyesin çağdaş faciələrimizlə və Qarabağ zəfərimizlə səsləşən dramatik səhnələri truppanın yüksək peşəkar oyunu ilə salonda yüksək vətənpərvərlik coşğusu yaratdı. Yaddaşları silkələyən sənət həqiqəti tarixi gerçəyi anlatmaqla dövlətçilik məfkurəsi yaşantısına çevrildi.

Yeni quruluşun rejissoru, Xalq artisti Mərahim Fərzəlibəyov rolları paylaşdığı Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nurzadə, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Elxan Quliyev, Aslan Şirin, Elnar Qarayev, Əminə Babayeva, aktyorlar İlyas Əhmədov, Ramin Şıxəliyev, Ləman İmanova, Cavidan Novruz, Firuzə Balayeva, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Elsevər Rəhimov və Tural İbrahimovla birgə milli dram səhnəmizə zənginlik və orijinal ifa tərzi gətirən tamaşa qurmağa nail olub.

Səhnə "Qarabağnamə"mizə dekorativ quruluşu rəssam İsmayıl Məmmədov verib. Geyim eskizləri rəssam Aygün Mahmudova məxsusdur. İşıq effektlərini Rafael Həsənov, musiqi müşayiətini isə Həmid Kazımzadə qurublar. Tamaşada Xalq artistləri Polad Bülbüloğlu və Vasif Adıgözəlovun Qarabağ mövzusunda əsərlərindən istifadə olunub.

Xatırladaq ki, İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri teatrın səhnəsində ilk dəfə 1996-cı ildə oynanılıb. Böyük uğur qazanan tamaşaya 1997-ci il sentyabrın 20-də maraqla baxmış Ümummilli lider Heydər Əliyev yaradıcı heyətlə görüşdə əsəri yüksək qiymətləndirib, ona hər kəsin baxmasının vacibliyini bildirib.

**Tahir AYDINOĞLU**
**XQ**

# Qardaşlığın ekran təcəssümü

**Məlum olduğu kimi, Qafqaz İslam Ordusu 1918-ci il sentyabrın 15-də Bakını "Sentrokaspi diktaturası" hökumətindən və daşnak törtöküntülərindən təmizlədikdən iki gün sonra – sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Gəncədən Bakıya köçüb və Bakı rəsmən Cümhuriyyətin paytaxtı elan edilib. Bu gün həmin tarixi hadisədən düz 105 il ötür. Haqqında söhbət açdığımız nadir filmdə isə Azərbaycan öz istiqlalını 1920-ci ildə itirdikdən sonra mühacirlərimiz fəaliyyətlərini əsasən qardaş Türkiyədə davam etdirməsindən bəhs olunur.**

Həmin dövrlərdə M.Ə.Rəsulzadə, N.B.Şeyxzamanlı, Ş.B. Rüstəmbəyli və digərləri xaricdə Azərbaycanın milli müstəqilliyi uğrunda mübarizə aparıblar. 1935-ci ildə Məhəmməd Altunbay da Vətəni tərk etməyə məcbur qalmış, öz təyyarəsində Tükiyəyə pənah aparmışdı. O, bu barədə xatirələrini "Azadlığa uçan türk" kitabında qələmə alıb.

1967-ci ildə Azərbaycanla Türkiyə arasında sıx münasibət olmasa da, qardaş ölkədə istiqlal mücahidi Məhəmməd Altunbay və silahdaşları barədə film meydana çıxdı. "501 nömrəli hücrə" adlanan həmin filmin rejissoru Nüsrət Əraslandır. Məhəmməd Altunbay öz xatirələrini ssenari halına salaraq Türkiyə Silahlı Qüvvələrinin Baş Qərərgahına təhvil vermişdi. Filmin çəkilməsinə türk ordusu komandanlığı kömək etmişdi. Bu, ilk növbədə qardaşlıq yardımı idi.

Film müstəqil Azərbaycanın himninin müşayiəti ilə başlanır. Soydaşlarımızın sovet sürgünü və qətliamlarına məruz qalması əks olunur. Həmin səhnələri izlədikdə Məhəmməd Altunbayın (Cüneyid Gökçer) səsini eşidirik. Sovetlərin tərkibində olan Azərbaycanda hürriyyətin olmamasının diqqətə çatdırılması filmin ana xəttindən xəbər verir. O Türkiyəni ana Vətənin parçası kmi görür. Sovet cəza orqanları Azərbaycan mühacirlərini qarabaqara izləyirlər. Repressiv fəaliyyətin başında isə General Mixailov (Şahab Akalın) durur. Sovet çekistləri insanları ələ almaq üçün "Qırmızı Şeytan" kafe-barından istifadə edirlər. Bura rəmzi məkandır, rus imperiyanın siyasətinə uyğun olaraq belə adlanır.

Mixailov Məhəmməd Altunbay və digər mücahidlərin izlənməsi üçün qadınlardan istifadə etmək istəyir. Bu məqsədlə gözəllik yarışmasının qalibi olan Tildanı (Aytən Gökçer) yanına çağırır. General Tildana öz gözəlliyi sayəsində




Azərbaycan kişilərini ələ almağı tapşırır.

Tildan 6 yaşında olanda qardaşları bolşeviklər tərəfindən güllələnib. Buna görə də Tildanın da içində sovetlərə qarşı nifrət var və o, üçrəngli bayrağın üstündə Qurani-Kərimə and içərək milli savaşa sədaqətli olacağını bildirir. Beləliklə də Tilda özünü zahirən sovetlərə yaxın göstərir, amma onların kəşfiyyat planlarını pozmağa çalışır.

Filmdə azadlıq uğrunda aparılan mübarizə zülmlə savaş kontekstində əks olunur. Kəşfiyyat komissarı Şişkov (İlyas Avcı) Məhəmməd Altunbayı şərləmək üçün təyyarələri qəsdən xarab edir. Nəticədə, rus zabitlərin sürdüyü təyyarələr partlayır. Məhəmməd Altunbay ruslara düşmənçilik ittihamıyla həbs olunur. Filmdə hadisələr tam xronoloji ardıcıllıqla yox, irəli-geri istiqamətdə cərəyan edir. Biz Məhəmməd Altunbayı gah mühacirlərin başçısı, gah da sovet təyyarəçisi kimi görürük. Lakin bu filmin ideya xəttinə ziyan vurmur.

Daha bir vacib məqam Əbdurrəhman bəy Fətəlibəyli-Düdənginski ilə bağlıdır. Düzdür, kadrlarda Düdəngiski görünmür, lakin onun Rusiya müsəlmanlarına müraciəti səslənir. Radio vasitəsilə o, Azərbaycan xalqının azadlıq uğrunda savaşı barədə məlumat verir. Bununla da Almaniyadakı milli legion dəstələrimizin azadlıq uğrunda savaşı barədə tamaşaçılara məlumat verilir. Düdənginskinin daha bir hünəri Stalinə qarşı vuruşan rus əsgərləri ilə saziş bağlamasıdır. Rus professor Karpatkin də Azərbaycanın azadlıq mübarizəsinə hörmətlə yanaşır. Bununla da imperiyanın xalqlar arasındakı nifaq siyasətinə mənəvi zərbə vurulur.

Mixailova ən böyük zərbə qızı Nadyadan (Gülşən Alnıaçıq) gəlir. Çünki o da millət fərqi qoymadan azadlıq savaşına qoşulur, özünü, ilk növbədə, azadlığın övladı kimi görür. Nadya Məhəmməd Altunbayın həyatını xilas edir. Nadyanın Bununla da Mixailovun timsalında sovet totalitarizminə güclü etirazın təmsilçisi olur.

Məhəmməd Altunbay Azərbaycandan qaçarkən Təbriz həbsxanasında 8 ay saxlanılmışdı. Filmdə bu məqam dramatik boyalarla əksini tapıb. Rza şah Pəhləvi hakimiyyəti sovetlərdən qorxduğu üçün onu təhvil vermək istəyir. Gizli yolla Türkiyəyə keçmək istəyən mücahidlər İraqda yaxalanaraq yenidən həbs olunurlar. İngiltərənin nəzarətindəki İraqda onları Almaniya xüsusi xidmət orqanlarının adamları kimi qəbul edirlər. Türkiyənin onları darda qoymacağını bilən komandan həbsxanada kömək ala bilir. Anası ərzurumlu olan Əhməd onlara verilən çöreyin arasına kağız-qələm qoyur. Bununla da Məhəmməd Altunbay Bağdaddakı türk səfirliyinə vəziyyətlə bağlı məlumat verir və dostu Oktayla birlikdə ölümün bir addımlığında ikən türk qardaşlığının köməyi ilə xilas olur. Film Azərbaycan–Türkiyə qardaşlığının daimiliyi fikri ilə yekunlaşır.

Bir çox tamaşaçının bu film barədə məlumatı yoxdur. Türkiyə kinosunun elə də inkişaf etmədiyi 60-cı illərdə "501 nömrəli hücrə"nin çəkilməsi qardaşlıq duyğusunun əbədi olmasından xəbər verir.

**Ceyhun MİRZƏLİ**

# Mədəniyyət xəbərləri



***Daşkənddəki Özbəkistan Dövlət İncəsənət Muzeyi ilə Azərbaycan Milli İncəsənət Muzeyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.***

Sənəd Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Çingiz Fərzəliyev və Özbəkistan Dövlət İncəsənət Muzeyinin direktoru Vasila Fayziyeva tərəfindən imzalanıb. Tərəflər dost və qardaş olan iki ölkə arasında mədəni əlaqələrin genişlənməsindən məmnunluğunu ifadə edərək, bu sazişin muzeylər arasında gələcək əlaqələrin inkişafına, təcrübə mübadiləsinə öz layiqli töhfəsini verəcəyinə əmin olduqlarını qeyd ediblər.

Sənədə əsasən, 5 il müddətində muzeylər arasında elmi-tədqiqat və bərpa-konservasiya işinin aparılması, muzey işçilərinin təcrübə mübadiləsi, konfrans, seminar və treninqlərin keçirilməsi, birgə sərgilərin təşkili, elektron kataloqların yaradılması kimi məsələlər reallaşdırılacaq.

***

***Azərbaycanda bir həftəlik "Sevilfest-2023" IV Beynəlxalq Qadın Sənədli Film Festivalı start götürüb. Filmlər Bakı, Şəki və Lənkəran şəhərlərində nümayiş olunur***

Azərbaycanda müstəqil sənədli film festivalı olan "Sevilfest" qadınların problemlərinə həsr olunub və 2020-ci ildən keçirilir. Builki festival "Bu, sizin ölkənizdə yoxdur" devizi altında və təcrübə mübadiləsi şəraitində təşkil olunub. Yerli və beynəlxalq kinematoqrafçıların qatıldığı "Sevilfest" qadınların və marginal qrupların həyat hadisələrini paylaşmaq və diqqəti onların sosial problemlərinə yönəltmək məqsədilə kinematoqrafçıları və kino həvəskarlarını öz ətrafında birləşdirir. Bu tədbir çərçivəsində dörd il ərzində ölkənin müxtəlif regionlarında çoxsaylı film nümayişləri təşkil olunub. Ümumilikdə, Azərbaycanın 8 şəhərində 2600-dən çox iştirakçının cəlb edildiyi 125 nümayiş keçirilib.

Festivalın münsiflər heyətinin üzvləri arasında rejissor və jurnalist Atanur Nəbiyeva, sənədli filmlərin rejissoru Ketevan Vaşaqaşvili, ictimai xadim və qadın hüquqları müdafiəçisi Ülviyyə Babasoy, rejissor və kinoşünas Şərafət Arabova, fotoqraf Rəna Əfəndi, prodüser, "Qızlar kinoda" platformasının nümayəndəsi Rebekka Reyni var.

Festivalın adı Cəfər Cabbarlının qadın azadlığı mövzusunda qələmə aldığı "Sevil" pyesindən götürülüb.

***

***Milli Musiqi Günü münasibətilə sentyabrın 16-da Azərbaycan Milli Xalça Muzeyində "Xalçalarda musiqi" adlı sərgi açılıb və uşaqlar üçün konsert proqramı təşkil olunub.***

Sərgidə muzeyin kolleksiyasından musiqi sənəti ilə əlaqəli zəngin kompozisiyalı portret və süjetli xalçalar, qobelenlər nümayiş etdirilir. Bunlar Xalq rəssamları Tahir Salahov və Eldar Mikayılzadənin görkəmli bəstəkarlar Üzeyir Hacıbəyli, Qara Qarayev və Dmitri Şostakoviçə həsr olunmuş portret xalçaları, rəssamlar Pavel Kuzmenko, Rimma Eminova və Faiq İbrahimovun xalça eskizlərindən ibarət əsərlərdir.

Miniatür və realizm üslubunda bədii-texniki cəhətdən mükəmməl işlənmiş bu əsərlərdə klassik və xalq musiqisi, muğam və milli rəqs sənəti, musiqi alətlərimiz xalça naxışlarında öz əksini tapıb.

Yüksək bədii-estetik dəyəri olan müəllif əsərlərindən ibarət sərgi sentyabrın 28-dək davam edəcək.

Sərgi ilə tanışlıq Milli Musiqi Gününə həsr edilən konsert proqramı ilə davam edib. H.Sarabski adına 7 nömrəli uşaq musiqi məktəbinin şagirdlərinin ifasında klassik və müasir musiqi nümunələri təqdim edilib, vətənpərvərlik ruhunda şeirlər səsləndirilib.

***

***Sentyabrın 17-də Lənkəran Dövlət Dram Teatrı rejissor Abdulla Elşadlının Mixail Bulqakovla Səbuhi İmanovun mətnlərindən istifadə etməklə Əbdürrəhim bəy Haqverdiyevin "Kimdir müqəssir?" pyesi əsasında quruluş verdiyi "The Müqəssir" tamaşası ilə özünün 133-cü mövsümünə başlayacaq.***

Teatrdan XQ-yə verilən məlumata görə, mistik komediya janrında olan səhnə əsərinin quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Azər Hacıəsgərlidir. Bildirilib ki, kollektiv bu mövsümdə Çingiz Aytmatovun "Cəmilə" (rejissor: İmran Əli Qurbanlı), Piter Turininin "Bu da axırı" (monotamaşa; rejissor: Abdulla Elşadlı) tamaşalarını tamamlamaqla yanaşı, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "İki 23 arasında" (müəllif: Qəşəm Nəcəfzadə, rejissor:Emil Əskərov) səhnə işini də teatrsevərlərin ixtiyarına verəcək.

**Ə.DOSTƏLİ ,**
**F.SALMANOVA**
**XQ**

# İMEC, yoxsa “Orta dəhliz”?

## Qlobal logistik marşrutlar uğrunda mübarizə güclənir

**(əvvəli 1-ci səhifədə)**

Bu möhtəşəm ideyanın icrası, şübhəsiz, müəyyən vaxt apacaq və iri maliyyə vəsaiti tələb edəcək. Təbii ki, belə böyük, ağır işə girişmək hər “oğulun işi deyil”. Amma neftlə zəngin regionda bu nəhəng işləri maliyyələşdirmək imkanı olan dövlətlər var. Məsələn, Səudiyyə Ərəbistanının vəliəhd-şahzadəsi Məhəmməd bin Salman jurnalistlərə bildirib ki, onun ölkəsi ilkin mərhələdə layihənin uğurla həyata keçirilməsi üçün 20 milyrad dollar ayırmaq fikrindədir.




Yəqin ki, belə meqalayihələrin yükünün altına “çiyin vermək” istəyən beynəlxalq maliyyə təşkilatları, iri transmilli korporasiyalar da tapılacaq. Layihənin ideya müəllifləri olan ABŞ hökuməti və rəsmi Dehli iddia edir ki, İMEC işə düşərsə, Hindistandan Avropaya malların “səyahəti”nə sərf olunan vaxt, azı, 40 faiz azala bilər.

Yeri gəlmişkən, İMEC-in səmərəli nəqliyyat dəhlizi olacağını təsdiq etmək çətindir. Ən azından ona görə ki, müxtəlif ölkələrdən, dəniz və limanlardan gəmi və dəmir yolları vasitəsilə daşınacaq mal və əmtəələrin vahid gömrük tariflərini təyin etmək heç də asan deyildir. Bundan başqa, dəhliz boyu zəruri infrastruktur yaradılmalıdır. Bütün bunları qısa zamanda həyata keçirmək o qədər də asan deyil.

Bir çox təhlilçilər iddia edirlər ki, Hindistandan malların Avropaya çatdırılması üzrə marşrut, ilk növbədə, Türkiyə üzərindən keçməlidir. Belə ki, qardaş ölkənin Mersin liman şəhəri bu dəhlizin əsas dayanacaqlarından biri olmalıdır. Türkiyənin coğrafi mövqeyi onu regionun təbii coğrafi və iqtisadi mərkəzinə çevirib və bu amil mütləq nəzərə alınmalıdır. Avropaya aparan yol ən yaxın Türkiyədən keçir. Bunu görmək üçün yeni bir Amerika icad etməyə ehtiyac yoxdur.

Nədənsə, bu marşrut İMEC-in ideya müəlliflərinin “yadına düşməyib”. Bu, sadəcə, “texniki bir səhv” ola bilməz. Böyük ehtimalla, Vaşinqton burada müstəqil xarici siyasət kursu həyata keçirən Türkiyəni məqsədli şəkildə rəncidə salmaq istəyib.

Görünür, Vaşinqtonda rəsmi Ankaraya belə bir mesaj vermək istəyiblər: “Bizimlə əməkdaşlıq etmək istəyirsinizsə, bunu layiq olduğunuzu əməldə sübut edin!” Türkiyə hökumətinin buna nə cavab verəcəyi bəlli deyil. Böyük ehtimalla, Ankara yeni layihənin rentabelli olacağına şübhə edir.

Fakt budur ki, İMEC iqtisadi maraqlardan daha çox siyasi hədəflərə xidmət edir. Böyük biznes isə maddiyyat və qazanc üzərində qurulub. Heç kim ziyana düşmək istəməz. Türkiyə də bunu yaxşı başa düşür və hadisələrin sonrakı gedişatını gözləyir.

Bakı Dövlət Universitetinin xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov bildirdi ki, Türkiyə üçün hazırkı şəraitdə İMEC o qədər də maraqlı və cəlbedici ola bilməz. Çünki ona alternativ olan “Bir kəmər, bir yol” layihəsi çərçivəsində “Orta dəhliz” mövcuddur ki, onun reallaşması daha faydalıdır.

Bu layihə çərçivəsində malların zəngin təbii və iqtisadi resurslara malik olan Orta Asiya dövlətləri üzərindən Azərbaycana, buradan da Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana və Türkiyəyə daşınması üçün nəzərdə tutulub. Əslində, Avropa İttifaqı da bu layihəni dəstəkləyir.

Böyük Britaniya hökuməti də “Orta dəhliz”in tezliklə həyata keçirilməsində maraqlı olduğunu gizlətmir. London yaxşı başa düşür ki, Çinin Mərkəzi və Orta Asiyada qarşısına çıxa biləcək əsas qüvvə Böyük Turandır. O da nəzərə alınır ki, Çindən fərqli olaraq çox sayda türk xalqlarının tarixən yaşadığı böyük bir coğrafi məkanda türk mədəniyyəti və sivilizasiyası hazırda ciddi təsir gücünə, necə deyərlər, “yumşaq güc”ə malikdir.

Burada başqa bir incə məqam da var. Tanınmış siyasi şərhçi, professor Mübariz Məmmədli hesab edir ki, son vaxtlar Cənubi Qafqazda siyasi və hərbi gərginlik yaratmaq istəyənlərin əsas niyyətlərindən biri məhz Zəngəzur dəhlizinin açılmasına mane olmaq, Türkiyə ilə qardaş türk dövlətləri arasında birbaşa quru yolun açılmasının qarşısını almaqdır.

Bununla bərabər, professor M.Məmmədli əmindir ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılmasına heç bir qüvvə mane ola biməyəcək. Belə ki, regionda söz sahibi olan müstəqil Azərabycan dövləti bu məsələdə siyasi iradə ortaya qoyub. Cənubi Qafqaz dövlətləri və xalqları, eləcə də ermənilər, nəhayət, dərk etməlidirlər ki, dəhlizin açılması və fəaliyyət göstərməsi regiona sülh və sabitliklə bərabər, rifah və tərəqqi gətirəcək.

***Ceyran CƏFƏRLİ,***
***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi



**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun professoru,**
**siyasi şərhçi**

– İMEC-in əsas məqsədi Yaxın Şərq ölkələrini dəmir yolu və limanlar vasitəsilə birləşdirərək, onlarla Hindistan arasında əlaqə yaratmaq, bununla da xərcləri və yanacaqdan istifadəni azaltmaqla, İran körfəzindən Avropaya enerji və ticarət axınına yardım etməkdir.

Bu, geniş ictimaiyyət üçün nəzərdə tutulan rəsmi açıqlamadır. Təbii ki, burada siyasi motivlər də var və bir qədər sonra bu barədə bəhs edəcəyəm.

Əvvəlcə, İMEC-in iqtisadi səmərəsi barədə danışaq. Layihə Hindistandan Avropaya BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail üzərindən dəmiryol xətləri və liman infrastrukturunun inteqrasiyasını nəzərdə tutur. Prezident Co Bayden hesab edir ki, bu razılaşma regionda aşağı və orta gəlirli ölkələr üçün çox faydalı olacaq, həmçinin Yaxın Şərqin qlobal ticarətdə əhəmiyyətli rol oynamasına imkan yaradacaq.

Qeyd edək ki, bu, olduqca mürəkkəb və genişmiqyaslı layihənin həyata keçməsi üçün son dərəcə böyük maliyyə vəsaitləri tələb olunacaq. Saziş Çinin məşhur “Bir kəmər, bir yol” layihəsinin aktuallığına kölgə salmaq məqsədi daşıyır.

Məlumdur ki, son illər rəsmi Pekin Qədim İpək Yolunun bərpasını nəzərdə tutan “Bir kəmər, bir yol” layihəsinin icrası üçün davamlı işlər görməkdədir. Hindistandan Avropaya qapı açan yeni layihə isə, fikrimcə, Çinin qlobal səylərinə ciddi rəqib kimi görünür.

Hesab edirəm ki, yeni dəhliz ideyası Səudiyyə Ərəbistanı ilə Amerika Birləşmiş Ştatlarının beyin mərkəzlərində meydana gəlib. Bir daha vurğulamaq istəyirəm: İMEC, ilk növbədə, Çinin iqtisadi qüdrətini azaltmaq məqsədi daşıyır.

Azərbaycan dövləti “Orta dəhliz”in işə düşməsində çox maraqlıdır. Bu layihə türk dövlətləri arasında iqtisadi əlaqələri daha da gücləndirəcək.

Görünür, Böyük Turanın super qüvvəyə çevrilməsinə qarşı çıxan qüvvələr var. Lakin belə səylər əbəsdir. Fikrimcə, “Orta dəhliz” iqtisadi cəhətdən daha səmərəlidir. Siyasət və diplomatiya isə iqtisadiyyatın maraqlarını ifadə etmək üçündür.

### SOSİAL XƏBƏRLƏR



## Bolqarıstanla əməkdaşlıq genişlənir

**Ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının əmək və sosial siyasət nazirinin müavini Desislava Stoyanovanın başçılıq etdiyi nümayəndə heyəti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüş olub.**

Nazir müavini Anar Kərimov Azərbaycanda son illər aparılan sosial islahatların nailiyyətləri, DOST konsepsiyası, ölkəmizdə icra olunan sosial müdafiə və aktiv əmək bazarı proqramları barədə məlumat verib. Sosial sahədə elektron xidmətlərin geniş tətbiqi sahəsində əldə olunan uğurları qeyd edib.

Söhbət zamanı Azərbaycan və Bolqarıstan arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində olduğu vurğulanıb. Əlaqələrin əmək, məşğulluq, sosial müdafiə sahələrini də əhatə etdiyi bildirilib. Son illərdə imzalanan əməkdaşlıq sənədlərinin bu əlaqələrin genişlənməsində önəmi diqqətə çatdırılıb.

D.Stoyanova ölkələrarası münasibətlərin inkişaf etməsindən məmnunluq ifadə edib. Əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişlənməsində maraqlı olduqlarını, islahatlar prosesində fəal təcrübə mübadilələrinin qarşılıqlı əhəmiyyətini vurğulayıb.

Görüşdə gələcək sosial əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

## Avropa Sosial Şəbəkəsinin sədri inklüziv mərkəzdə



**Avropa Sosial Şəbəkəsinin sədri Kristian Fillet DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin qonağı olub. Mərkəzin direktoru Nigar Məmmədova Kristian Filleti qurumun fəaliyyəti ilə tanış edib.**

Qonağa həssas əhali qruplarının sosial müdafiəsi sahəsində aparılan işlər, onların cəmiyyətə fəal inteqrasiyası istiqamətində həyata keçirilən layihələr barəsində məlumat verilib. Qeyd edilib ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi şəhid ailələri üzvləri, əlilliyi olan şəxslər, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, aztəminatlı ailələrin üzvləri və digər həssas qruplara xidmət göstərir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzin Cənubi Qafqazda geniş fəaliyyət sahələrini əhatə edən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı olduğu vurğulanıb.

Qonaq mərkəzdə yaradılan şərait, müxtəlif fəaliyyət istiqamətləri üzrə aparılan təlimlər, benefisiarların hazırladıqları yaradıcılıq nümunələri ilə tanış olub. Təlimlərə cəlb olunan həssas qrupların bacarıq və istedadlarının inkişaf etdirilməsi ilə yanaşı, burada onlarla bağlı fərdi inkişaf planları əsasında kompleks reabilitasiya işlərinin də aparıldığı diqqətə çatdırılıb. Mərkəzin benefisiarlarının ifasında konsert proqramı təqdim edilib.

## Layihələrin beynəlxalq uğurları




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Əlillik” altsistemi “Avropa Müxtəliflik Mükafatı 2023” müsabiqəsinin finalçısı adına layiq görülüb.**

Nazirliyin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi tərəfindən müsabiqəyə “Əlillik” altsisteminin funksionallığı, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu, əlilliyin qiymətləndirilməsində şəffaflıq, obyektivlik və çevikliyin təminatında mühüm rolu barədə məlumatlar təqdim edilib.

Altsistemin müasir informasiya texnologiyalarının geniş tətbiqində, tibbi-sosial ekspertiza və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və səmərəliliyində xüsusi önəmi vurğulanıb.

“Əlillik” altsistemi qiymətləndirmə komandası tərəfindən yoxlanılıb və 50-dən çox ölkədən 18 kateqoriya üzrə 168 layihənin iştirak etdiyi müsabiqənin “Texnologiyada müxtəliflik” kateqoriyasında finalçılar siyahısına daxil edilib. Müsabiqənin Böyük Britaniyada keçiriləcək final mərhələsində qaliblər seçiləcək.

Böyük Britaniyanın 2010-cu ildən fəaliyyət göstərən “Avropa Müxtəliflik Müsabiqəsi” təşkilatının hər il keçirdiyi müsabiqələr bərabərlik, müxtəliflik və inklüzivlik gündəmində əsl fərq yaradan şəxsləri və təşkilatları müəyyən edir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Neftin qiymətinin artması böhrana səbəb ola bilərmi?

**Analitiklər Beynəlxalq Enerji Agentliyinin (IEA) neft bazarları üzrə aylıq hesabatından son dərəcə narahatdırlar. Hesabatda qlobal neft tələbatının davamlı artdığı qeyd olunub. Amma bazara tələbata uyğun həcmdə neft çıxarılmır. Bunun da səbəbkarı Səudiyyə Ərəbistanı və Rusiyadır. Səudiyyə Ərəbistanı könüllü olaraq neft hasilatını, Rusiya isə ixracını azaldır. Artıq Ər-Riyad hasilatının könüllü olaraq 1 milyon barel azaldılmasını ilin sonuna qədər davam etdirəcəyini açıqlayıb.**



Rusiya isə ilin sonuna qədər neft ixracını könüllü olaraq gündəlik 300 min barel azaldacaq. Bundan əvvəl Rusiya avqustun 1-dən gündəlik hasilatı 500 min barel azaltmışdı. Beləliklə, bu iki ölkə tədarük ixtisarlarını 2023-cü ilin sonuna qədər uzadıb. Nəticədə, Ər-Riyad və Moskva dünya bazarında son 10 ildə ən böyük neft kəsiri yaradıblar. Bu o deməkdir ki, qlobal neft ehtiyatları azalmaqda davam edir və yüksək qiymətlər qalır. Məsələn, “Brent” nefti 36 sent bahalaşaraq 92,24 dollar, ABŞ-nin Qərbi Texas nefti (WTI) isə 35 sent bahalaşaraq 88,87 dollar olub. “Azeri Light” markalı Azərbaycan nefti 0,09 dollar artaraq 98,73 dollar təşkil edib. “Azeri Light” neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Qarşıdakı aylarda neftin ucuzlaşması görünmür. 2024-cü ildə bir barelin qiymətinin 107 dollar olacağı proqnozlaşdırılır.

Aydındır ki, bu dövlətlərin hər ikisi yanacağın yüksək qiymətlərində maraqlıdırlar. Birincisi, neftin qiymətinin artması onların valyuta gəlirlərini, vergi və gömrük rüsumlarından büdcəyə daxilolmalar artır. İkincisi, səudiyyəlilər daxili islahatlar aparır, Rusiya isə Ukraynada hərbi əməliyyatları davam etdirirlər. Həm müharibə, həm də islahatlar ucuz başa gəlmir, böyük məbləğdə vəsait tələb edir. Məsələn, Rusiya 2023-cü il üçün müharibə xərclərini iki dəfə artırıb. Bu xərclər 100 milyard dolları ötüb və dövlət xərclərinin üçdə birini təşkil edir. Bunu Reuters agentliyi əldə etdiyi Rusiya hökumətinin sənədinə istinadən yazır. Rəsmi olaraq bu xərclər “müdafiə” xərcləri adlanır.

Sənəddən belə çıxır ki, təkcə 2023-cü ilin birinci yarısında Rusiya “müdafiə” üçün 5,59 trilyon rubl (60 milyard dollardan çox) xərcləyib: Rusiya hakimiyyətinin planlaşdırdığı 4,98 milyard rubldan (54 milyard dollar) 12 faiz çox.

Analitiklər qeyd edirlər ki, neft hasilatı hazırkı səviyyədə qalarsa, növbəti rübdə tələblə təklif arasında fərq iki dəfə artacaq. Nəzərdə tutulan dövrdə istehsalçıların gündə təxminən 30,7 milyon barel neftə ehtiyacı olacaq. OPEK-in proqnozlarına görə, kommersiya neft ehtiyatları dördüncü rübdə gündə təxminən 3,3 milyon barel azalacaq və bu, 2007-ci ildən bəri ən kəskin azalmadır: o zaman maliyyə böhranı ərəfəsində həm dünya iqtisadiyyatı, həm də neftin qiymətləri çox artmışdı.

Neft qıtlığı adambaşına düşən avtomobil yanacağına da təsir edir. “Grafonomics” kanalının ekspertləri hesab edirlər ki, son 50 ildə adambaşına neft istehlakı faktiki olaraq dəyişməz qalıb. Yəni, inkişaf etmiş ölkələrin enerji səmərəliliyi proqramları, elektromobilləşdirmə və s. adambaşına avtomobil yanacağı sərfinin azalmasına səbəb ola bilməmişdir. Bəs niyə? Əgər “yaşıl enerji”dən istifadə hər il artırsa, neftə (benzinə) tələbat da azalmalıdır. Amma əksinə, adambaşına düşən avtomobil yanacağı artır. Bu proqramlar yalnız Asiyada artan tələbatı kompensasiya edə bilir. Sadə dillə desək, alman maşınının “yemədiyi” hər şeyi Çin maşınları “yeyir”. Həm də 1,5 milyard hindli, yüz milyonlarla pakistanlı, nigeriyalı və indoneziyalı şəklində bir ehtiyat da var. Hamısı gündə bir neçə litr benzin tələb edirlər. Ən azından artan əhali hesabına tələbat da artır. Bazara çıxarılan azalan neftin həcmi onun qiymətinə də təsir edir. Bu, özünü benzin istehsalının azalması və qiymət artımında göstərir. Tələbatı isə təmin etmək çətinləşir. Bu səbəbdən hazırda Rusiyanın bir çox vilayətlərində benzin qıtlığı yaranıb. ”.

Beləliklə, ruslar və səudilər üçün qara qızılın bahalaşması büdcə daxilolmalarının artması və rublun möhkəmlənməsinə ümiddirsə, Qərb ölkələri üçün bu, ilk növbədə, inflyasiyaya meyilli təhlükədir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
veb-sayt: www.xalqqazeti.az
№ 201 (30317) 17 sentyabr 2023-cü il, bazar

Maraq dünyamız

# Əsrdən yaşlı yaponlar çoxalır

**Hazırda Yaponiyada 100 yaşdan yuxarı 92 min 139 vətəndaş yaşayır. Onların sayı 50 ildən artıqdır ki, artır. Bu il ölkədə 100 yaşdan yuxarı olanların sayı 1,5 min nəfər də çoxalıb. Onların 89 faizi zərif cinsin nümayəndələridir.**



1963-cü ildə ölkədə ahılların sosial təminatı haqqında qanunun qəbulundan sonra Yaponiyada yüz yaşlıların sayı artır. O zaman ölkədə 100 yaşdan yuxarı 153 nəfər var idi. 1981-ci ildə onların sayı mini, 1998-ci ildə 10 mini, 2012-ci ildə isə artıq 50 mini keçib. Bu gün isə onların sayı, yuxarıda qeyd etdiyimiz kimi, 92 min nəfərdən çoxdur.

Azərbaycan da uzunömürlülər diyarıdır. Ölkəmizdə 90 yaşına çatmış insan uzunömürlü hesab edilir. Dünya üzrə bu yaş həddi 100-dür. Azərbaycanda uzunömürlülərin sayı 2020-ci ildə 1052 idisə, hazırda bu rəqəm 2 mindən artıqdır.

*P.ƏFƏNDİ*
*XQ*

İdman xəbərləri

## Avropa turnirində qızıl və gümüş medal

**Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda cüdo üzrə açıq Avropa turnirinin ilk günündə komandamız qızıl və gümüş medal qazanıb.**



Qızıl medalı yığmamızın aktivinə Nəriman Mirzəyev (73 kq) yazdırıb. İslam Rəhimov (66 kq) isə yalnız finalda uduzaraq ikinci yerlə kifayətlənib. İlk günün nəticələrinə görə, Azərbaycan ümumi hesabda 3-cü pillədə qərarlaşıb. Fransa (1 qızıl, 1 gümüş, 3 bürünc medal) birinci, İsrail (1 qızıl, 1 gümüş, 2 bürünc medal) isə ikinci yerdədirlər.

Komandamız turnirə 21 cüdoçu ilə qatılıb. Yarış sentyabrın 17-dək davam edəcək.

## "Zəngəzur" 3-cü də olmadı



**"Zəngəzur" minifutbol komandası Bolqarıstanda təşkil edilən Avropa kuboku yarışında sonuncu oyununu keçirib.**

Azərbaycan təmsilçisi üçüncü yer uğrunda görüşdə Rumıniyanın "Nova Vita Taqru" kollektivi ilə qarşılaşıb. Rəqibinə 3:4 hesabı ilə məğlub olan komandamız yarışda dördüncü yeri tutub.

## "Qarabağ" – "Molde" oyununun biletləri satışda




**UEFA Avropa Liqasının qrup mərhələsinin ilk turunda Bakıda "Qarabağ" və Norveçin "Molde" komandası arasında keçiriləcək oyunun biletləri satışa çıxarılıb.**

Klubun mətbuat xidmətindən bildirilib ki, biletlərin qiyməti müvafiq olaraq 5, 20, 40 və 100 manat təşkil edir.

VIP biletlərin qiyməti isə 200 manatdır.

Biletləri Ağdam təmsilçisinin "Park Bulvar"dakı fan-şopundan, eləcə də "Iticket.az"ın satış məntəqələrindən əldə etmək olar.

Qeyd edək ki, sentyabrın 21-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Qarabağ" - "Molde" matçı saat 20:45-də başlayacaq.

*Leyla SABİRQIZI*
*XQ*

*Texnologiya yenilikləri*

## "Ağıllı" sistemlərin rəqabəti

**"Google" şirkəti süni intellektli məhsulunu yaxın zamanda ictimaiyyətə təqdim edəcək. Artıq onun son versiyası test mərhələsindədir. "Gemini" adlanan süni zəka sistemi "OpenAI" şirkətinin "GPT-4" modelinin əsas rəqibi olacaq.**




Məlumata görə, yeni süni intellekt özündə bir sıra böyük dil modellərini birləşdirir. Proqramın tərkibində olan dil modelləri vasitəsilə çat-botları, müxtəlif funksiyaları idarə etmək, "Excel" cədvəllərini təhlil etmək, "Midjourney"ə bənzər mətndən şəkillər yaratmaq və s. mümkündür. Onun "ChatGPT"dən fərqli olaraq həm şəkillər, həm də mətn yaratdığı iddia edilir. Sözügedən sistem, öz növbəsində, generativ neyron şəbəkələri sahəsində də istifadəçilərə geniş imkanlar təqdim edir.

Qeyd edək ki, "Gemini" bu ilin sonunadək şirkətin "Cloud Vertex AI" adlı bulud servisi üzərindən təqdim ediləcək. Bu vasitə ilə "Google" maddi qazanc əldə etməyi hədəfləyir.

*ƏFSANƏ*
*XQ*

## Süni zəka diaqnoz qoyur

**Daimi ağrılar hiss etməyə başlayanda Aleks 4 yaşında idi. İndi 7 yaşındadır. Anası Kortni oğluna hər gün ağrıkəsicilər verib.**



Ana 3 il ərzində oğlunu 17 həkimin yanına aparıb, lakin onların heç biri dəqiq diaqnoz qoya və düzgün müalicə təyin edə bilməyib.

Çarəsiz qalan qadın mütəxəssislərin köməyilə Aleksin simptomlarını və müayinə nəticələrini xüsusi formada təsvir edən ChatGPT-dən istifadə edib. "Chatbot" uşağa çox nadir bir diaqnoz qoyub – "onurğa beyni sindromu". Bunu neyrocərrahlar da təsdiqlədilər.

Mütəxəssislər oğlanın üzərində cərrahiyyə əməliyyatı aparaмоaraq, onu ağrılardan azad ediblər. Uşaq hazırda həkim nəzarətindədir və sağalır. Anası Kortni isə çox xoşbəxtdir!

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## Şahzadə Diananın "Qara qoyun"u

***Mərhum şahzadə Diananın teztez geyinib, "Qara qoyun" adı verdiyi qırmızı yun jaketi onun anım günündə satışa çıxarılıb və 1,14 milyon dollara alınıb.***



Dianaнын nişanlı olduğu dövrdə polo oyununda geyindiyi bu jaket məşhurlaşaraq istehsalçı firmanı dünya markasına çevirmişdi.

*XQ*

Mədəniyyət

**Rusiyanın "Birinci kanal"ında "Səs: Artıq uşaq deyillər" vokal şousu başlayıb. Qeyd edək ki, layihə "Səs: Uşaqlar" şousunun davamıdır.**

## "Sarı gəlin" Rusiya şousunda



Vokal yarışmasının üçüncü mövsümündə iştirak edən Rusiyada yaşayan soydaşımız Azər Nəsibov 8 ildən sonra şouya qayıdıb. Bu dəfə o, əvvəlcə Qərb estradasından populyar bir mahnı ifa edib. Daha sonra Azərbaycan xalq mahnısı "Sarı gəlin"i ifa edib.

Xatırladaq ki, A.Nəsibov şouda müğənni Polina Qaqarinanın komandasında yer alıb.

*XQ*

Təbiət

## Vəhşi heyvanın fotoqrafdan istəyi...

***Bir nəfər təbiətşünas-fotoqrafa çəkiliş zamanı oselot (pələng pişiyi cinsinə aid heyvan növü) yaxınlaşıb və işini bir kənara qoyaraq onu sığallamasını istəyib.***



Qeyd edək ki, oselotun başdan quyruğa qədər olan uzunluğu 100-140 santimetr, boyu, təxminən, 50 santimetr, çəkisi 10-16 kiloqramdır. Oselot zahiri görünüşünə görə daha çox bəbir balasına bənzəyir.

Oselotlar, əsasən, Mərkəzi və Cənubi Amerikada geniş yayılıb. Tək yaşayır və əsasən, gecələr ov edirlər. Ağaclara və qayalara dırmaşmaq qabiliyyətlərinə baxmayaraq, qidalarını yerdə axtarırlar. Şikarlarına ən çox kiçik məməlilər və quşlar daxildir, lakin bəzən ilanlarla da qidalana bilirlər. Oselotlar kiçik eşşək və donuzları da yeməkdən vaz keçmirlər.

*FİDAN*
*XQ*

Sağlamlıq

## Xəngəl də əngəlli imiş?

**Xəmir yeməklərindən mantı, düşbərə, xəngəl orqanizmdə bir sıra problemlərə səbəb olur. Rusiyalı həkim Aleksandr Umnov içlikli xəmir xörəklərindən aşırı istifadə edənlərdə hormonal pozulma yarandığını bildirib.**



Həkim deyib ki, bu qidalar çox kalorilidir, maddələr mübadiləsini tez pozur, ürək- damar problemləri, kişilərdə cinsi disfunksiya yaradır. Onlar qlüten mənbəyi olduğundan daxili iltihabi prosesləri artırır. Digər təhlükəsi belə yarımfabrikatlarda qədərindən çox duz və soyanın olmasıdır.

Həkim prosesin necə baş verdiyini də izah edib. Deyib ki, həmin xörəklərdə istifadə edilən farşın həcmini artırmaq üçün ona soya əlavə edilir. Soyanın tərkibindəki izoflavonlar bədəndə estrogenləri artırır. Nəticədə, daha çox kişilərdə hormonal dəyişiklik, piylənmə, ürək-damar problemləri yaranır. Eləcə də, damarlarda xolesterin toplanır.

Ona görə hər insana belə yeməklər uyğun deyil. Ümumiyyətlə, bu xörəkləri payız–qış fəslində hər həftə, yaxud 3 gündən bir yox, ayda 2 dəfə yemək olar.

*Z.HÜSEYNLİ*
*XQ*



## Aranda yağış, dağda qar...

**Milli Hidrometeorologiya Xidməti xəbər verir ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən başlayaraq bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Gecəyə doğru yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gün ərzində şimal-qərb küləyinin güclənəcəyi gözlənilir.**

Havanın temperaturu gecə 18-21° isti, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu olacaq. Nisbi rütubət 65-75 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var.

Havanın temperaturu gecə 12-17° isti, gündüz 20-25° isti, dağlarda gecə 5-10° isti, gündüz 10-15° isti olacaq.

*XQ*

Hadisə

## ABŞ-də təyyarə qəzası



**ABŞ-nin Vaşinqton ştatında ikinəfərlik təyyarə qəzaya uğrayıb.**

Bu barədə "The Seattle Times"ın məlumatında bildirilib ki, təyyarənin Sammamiş gölünə düşməsi nəticəsində bir nəfər ölüb, digər şəxs isə ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.

Hazırda hadisənin başvermə səbəbi araşdırılır.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4926
SİFARİŞ 2337
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00